

Milli azadlıqdan şirin nemət yoxdur!

# YENİ AZƏRBAYCAN

25 iyun 2025-ci il, çərşənbə
№ 108 (6935)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


## "8 Noyabr"ı mən seçdim...




Bax səh. 2

## Qərbi azərbaycanlıların hüquqlarının bərpasına beynəlxalq müstəvidə dəstək

Bax səh. 5

## Beynəlxalq təşkilatların fəal üzvü...

Qlobal təzadların artması, hərbi qarşıdurmaların geocoğrafiyasının genişlənməsi artıq danılmaz həqiqətə çevrilib. Yaşadığımız dövrdə bir çox hallarda hətta lokal, regional və ya qlobal təmaslar belə artıq müəyyən çərçivələr, maraqlar nəzərə alınır - etiraf olunmalıdır ki, beynəlxalq münasibətlər sistemində uğurlu təmsilçilik olduqca çətin bir hal alıb. Bəzən iqtisadi baxışlar, bəzən siyasi situasiya, bəzən təhlükəsizlik amili, bəzən isə ikitərəfli münasibətlərdə ortaya çıxan ziddiyyətlər maraqların kəsişməsinə, üst-üstə düşməsinə imkan vermir. Beləliklə, qütbləşmə və ya daha konkretləşdirsək fikir ayrılığı bütün sferalar üzrə dərinləşməkdə davam edir. Belə bir mənzərədə regional aktor kimi önə çıxmaq olduqca çətin görünür. Yaranan reallıqlar nəticə etibarı ilə belə bir fon yaradır - hər bir ölkə və ya təşkilat məhdud çevrəsi üzrə əlaqələr sistemi qurmaq məcburiyyətindədir.

Amma Azərbaycanın apardığı...

Bax səh. 4



Bax səh. 4

## YAP Gənclər Birliyinin iclası keçirilib

## Güclü dövlət, güclü ordu...

Bax səh. 5



Bax səh. 3

## "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimat mərasimi olub

## Minimum istehlak səbətinin tərkibinə yenidən baxılacaq

Milli Məclis "Yaşayış minimumu haqqında" Qanunu qəbul edib. Yeni dəyişikliklərə əsasən, minimum istehlak səbətinin tərkibinə yenidən baxılmaqla tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə yeni qida normaları müəyyənləşəcək. Qeyd edək ki, əvvəlki qanunvericilikdə sosial sahəyə aid müəssisələr üçün normaların təsdiqi nəzərdə tutulmurdu ki, bu da həmin sahələrdə sosial imkanlardan tam faydalanmağa imkan vermirdi. Yeni dəyişikliklər bu boşluğu aradan tamamilə qaldıracaq.

Qanuna dəyişikliklər, eyni zamanda, sonuncu dəfə 11 il öncə təsdiq edilən minimum istehlak səbətinin yeni tərkibinin də cari ildə yenidən müəyyənləşməsi üçün hüquqi zəmin yaradır. Ötən illərdə ölkədə qida mallarının qiymətinin artması, bəzi malların çeşidlərində əlavələrin olunması isə istehlak səbətinin dəyişməsi...

Bax səh. 6



## Ərəb ölkələrindən İrana xəbərdarlıq

Bax səh. 7

# Prezident İlham Əliyev: “8 Noyabr”ı mən seçdim...

## Energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir








### Son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq

### Həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır

### Bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının ərazisində Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib. AZƏRTAC xəbər verir ki, sonra dövlətimizin başçısı “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimində iştirak edən qonaqlarla görüşüb, onlarla söhbət edib. Söhbət zamanı bu stansiya layihəsinin əhəmiyyəti vurğulanıb. İtaliya və Çin şirkətlərinin bu layihədə iştirakının önəminə toxunulub. İşlərin qısa müddət ərzində yekunlaşması məmnunluqla qeyd edilib. Daha sonra “8 Noyabr” Elektrik Stansiyasının açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, “8 Noyabr” Elektrik Stansiyasının açılışı çox gözəl hadisədir. Ümumilikdə ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək bu stansiyanın yaradılması və qısa müddət ərzində bütün işlərin başa çatması ölkəmizin gücünü, potensialını, energetiklərimizin təcrübəsini, peşəkarlığını göstərir: “Bu gün “8 Noyabr” Elektrik Stansiyası ölkəmizin ən böyük elektrik stansiyasıdır. 1880 meqavat gücündə bu stansiya bizim enerji potensialımızı təbii olaraq daha da gücləndirəcək, enerji sisteminin səmərəliliyini artıracaq və beləliklə, Mingəçevirin nəinki Azərbaycanın, bütövlükdə Cənubi Qafqazın energetika mərkəzi olan statusunu daha da gücləndirəcək. Hazırda bizim elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və əlbəttə ki, görülmüş bütün bu işlər bir daha Azərbaycanın doğru yolda olduğunu göstərir”.

Dövlət başçısı qeyd edib ki, Mingəçevir 1970-ci illərdə Azərbaycan energetika sektorunun mərkəzi rolunu oynayıb. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 1974-cü ildə Mingəçevirdə “Azərbaycan” İstilik Elektrik Stansiyasının təməli qoyulub və Ulu Öndərin iştirakı ilə stansiyanın birinci bloku 1981-ci ildə istismara verilib. Ondan sonra digər bloklar da istismara verilərək artıq o zaman hələ sovet dövründə bu stansiya Qafqazın önəmli energetika mərkəzlərindən birinə çevrilib. “Təbii olaraq müstəqilliyin ilk illərində bizdə enerji qıtlığı yaranmışdır. Orta və yaşlı nəslin nümayəndələri o illəri yaxşı xatırlayırlar ki, o vaxt hətta axşam saat 12-də televiziya verilişləri də dayandırılırdı. Çünki energetika sistemimiz lazım olan həcmdə elektrik enerjisini istehsal edə bilmirdi. Həm yanacaq nöqteyi-nəzərindən çətinliklər var idi, həm də enerji sistemimiz tam köhnəlmişdi. Yalnız Ulu Öndərin təşəbbüsü ilə yaradılmış Mingəçevir stansiyası hesabına müəyyən dərəcədə fasilələrlə olsa belə, insanlara və müəssisələrə elektrik enerjisi verilirdi. Yəni, Mingəçevirin tarixi energetika mərkəzi kimi zəngindir və burada formalaşmış güclü kadr potensialı, əlbəttə ki, bu gün də bizə əldə edilmiş uğurlara nail olmaq üçün imkan yaradır”, - deyən ölkə başçısı vurğulayıb ki, son 20 il ərzində Azərbaycanın energetika sistemini demək olar ki, sıfırdan qurmuşuq. Ölkəmizin müxtəlif yerlərində yeni elektrik stansiyaları qurulub, eyni zamanda, Mingəçevirdə də yenidənqurma işləri aparılıb: “Yadınızdadır, burada baş vermiş qəza nəticəsində ölkəmizin böyük hissəsi, demək olar ki, işıqsız qalmışdı. Ondan sonra praktiki tədbirlər görülməyə başlanmış və biz qısa müddət ərzində burada böyük uğurlara nail ola bilmişik. 2018-ci ildə “Azərbaycan” İstilik Elektrik Stansiyasının yenidən qurulmasının təməli qoyuldu və 2020-ci il iyunun 25-də - düz beş il bundan əvvəl burada stansiyaya yeni həyat verilmişdir. Hazırda “Azərbaycan” Elektrik Stansiyasının generasiya gücü 1800 meqavat, “8 Noyabr” Stansiyasının gücü 1880 meqavatdır, Su Elektrik Stansiyasının gücü isə 400 meqavatdan çoxdur. Beləliklə, Azərbaycanın elektrik enerjisinin 40 faizindən çoxu Mingəçevirdə istehsal olunur və qeyd etdiyim kimi, bu, nəinki Azərbaycanın, Cənubi Qafqazın əsas energetika mərkəzidir”.



Prezident bildirib ki, bu layihənin qısa müddət ərzində icra edilməsi rekord nəticə sayıla bilər. “Biz iki il ərzində təxminən 2 min meqavat enerji əldə etmişik və əlbəttə ki, bunun bir çox səbəbləri var. Təbii ki, buna burada mövcud olan energetika bazamız, təcrübəmiz, Azərbaycan energetiklərinin peşəkarlığı, bilikləri, təcrübələri və əlbəttə ki, bizim beynəlxalq tərəfdaşlarımızın da töhfəsi şərait yaratdı”, - deyən dövlət başçısı stansiyanın ərsəyə gəlməsində İtaliya və Çin şirkətlərinin böyük payı olduğunu da söyləyib. Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan energetikləri ilə birlikdə bu gözəl işi biz qısa müddət ərzində görə bildik: “Qeyd etməliyəm ki, həm İtaliya, həm Çin Azərbaycanın strateji tərəfdaşlarıdır. Strateji tərəfdaşlıq haqqında İtaliya ilə iki, Çinlə iki bəyannamə imzalanmışdır və mənim bu ölkələrə çoxsaylı səfərlərim nəticəsində bir sıra istiqamətlər üzrə çox gözəl nəticələr əldə edilmişdir. İtaliya Azərbaycanın birnömrəli ticarət tərəfdaşıdır. Çin də ticarət tərəfdaşlarımız arasında qabaqcıl yerlərdədir. Biz İtaliya ilə xüsusilə energetika sahəsində, xam neft, təbii qaz sahəsində uzunmüddətli və strateji əməkdaşlığa bir neçə il bundan əvvəl başlamışıq. Çinlə isə bu yaxınlarda daha çox bərpaolunan enerji layihələrini birgə icra etməyə başlayırıq. Mənim aprel ayında Çinə dövlət səfərim zamanı lazım olan razılaşmalar əldə edildi. Onu da bildirməliyəm ki, Azərbaycanda bu gün yaradılan yeni Günəş elektrik stansiyalarının təchizatı böyük dərəcədə Çin şirkətləri tərəfindən təmin edilir. Yəni, bu hər iki ölkə bizim üçün həm strateji tərəfdaşdır, həm də önəmli ticarət tərəfdaşımızdır. Qeyd etdiyim kimi, siyasi əlaqələr çox yüksək səviyyədədir və biz burada çox gözəl beynəlxalq əməkdaşlıq nümunəsini görürük”.



“8 Noyabr” Stansiyasının istismara verilməsi bir çox məqsədləri təmin edəcək. “Qeyd etdiyim kimi, enerji sistemimizin səmərəliliyi artırılacaq, potensial, generasiya gücümüz artacaq, eyni zamanda, şərti yanacaq sərfiyyatı kəskin aşağı düşəcək və beləliklə, bu, bizə təbii qaza qənaət etmək üçün imkan yaradacaq. Çünki hər kəs yaxşı bilir ki, Azərbaycan qazına bu gün dünya bazarlarında böyük tələbat var və nə qədər biz daxildə təbii qaza qənaət etsək, ixrac imkanlarımız da bir o qədər artacaq. Beləliklə, burada şərti yanacağın sərfiyyatının az olması bizə əlavə qazanc gətirəcək. Təbii olaraq, biz təbii qazın qənaətini, eyni zamanda, bərpaolunan layihələrdə görürük və görəcəyik. Azərbaycan bu istiqamətdə də qabaqcıl ölkələr sırasındadır. İmzalanmış, icra edilən və icra ediləcək bərpaolunan enerji layihələri 2030-cu ilə qədər bizə 6500 meqavat yaşıl enerji verəcəkdir və əgər bu gün bizim ümumi generasiya gücümüz 9000 meqavatdırsa, bu, nə deməkdir, bunu hər kəs başa düşə bilər. Eyni zamanda, bizə təbii qaza qənaət etmək üçün imkanlar yaradılacaq və belə olan halda təbii qazımızın ixracı daha da artacaq. Yəni, bir neçə məqsəd burada təmin edilir və əlbəttə ki, bütün bu işlərin təməlində bizim düşünülmüş siyasət dayanır. Çünki biz hər istiqamət üzrə düşünülmüş siyasət və proqramlar əsasında çalışırıq”, - deyə vurğulayan Prezident İlham Əliyev bildirib ki, energetika hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. Bu gün dünyada, xüsusilə Avropa məkanında və digər bölgələrdə enerji xətlərinin təhlükə altında olmasının nə qədər böyük fəsadlara gətirib çıxardığını hər kəs öz gözləri ilə görə bilər. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyini təmin edən ölkələr sırasındadır və təsadüfi deyil ki, Avropa İttifaqı tamamilə haqlı olaraq Azərbaycanı etibarlı tərəfdaş və Pan-Avropa qaz təchizatçısı adlandırır. Çünki bu gün Azərbaycan qazı 12 ölkəyə qaz kəmərləri vasitəsilə ixrac edilir. Onlardan 10-u Avropa ölkəsidir və məhz bu göstəriciyə görə, qaz təchizatımızın coğrafi əhatəsinə görə Azərbaycan bu gün dünya miqyasında qabaqcıl yerlərdədir: “Əlbəttə ki, bir çox ölkə Azərbaycan qazından istifadə edib öz enerji təhlükəsizliyini təmin edir. Biz həm təbii qaz, həm xam neft, neft və neft-kimya məhsulları, müəyyən həcmdə elektrik enerjisini ixrac edirik. Ancaq qeyd etdiyim layihələr istismara veriləndən sonra biz müxtəlif elektrik kabelləri vasitəsilə yaşıl enerjini də ixrac edəcəyik. Beləliklə, ölkəmizin iqtisadi gücü, geosiyasi önəmi daha da artacaq, - halbuki bu gün də kifayət qədər yüksək səviyyədədir, - və Azərbaycan bu bölgədə sabitlik, inkişaf, tərəqqi məkanı kimi öz rolunu daha da gücləndirəcəkdir. Bu gün dünyada gedən prosesləri hər kəs izləyir. Bizim ətrafımızda demək olar ki, münaqişələr səngimir, əksinə, yeni münaqişə zonaları açılır. Böyük fəlakətlərə və insan faciələrinə gətirən toqquşmalar, müharibələr gedir. Biz də müharibə nədir, yaxşı bilirik. Bizim torpaqlarımız uzun illər işğal altında olmuşdur və İkinci Qarabağ müharibəsində Ermənistan nəinki bizim şəhər-kəndlərimizi və yaşayış obyektlərini məqsədyönlü şəkildə atəş altında saxlayırdı, hətta buraya da - Mingəçevirə də öz raketlərini göndərməyi də unutmamışdı - əgər belə demək mümkündürsə. Bunun da məqsədi bizim enerji infrastrukturumuzu iflic vəziyyətinə salmaq idi. Hətta İkinci Qarabağ müharibəsindən əvvəl bizi hədələmək üçün bir neçə üsuldan istifadə edən Ermənistan, o cümlədən Mingəçeviri bombalamaq, burada su bəndini dağıtmaq və Mingəçevir Elektrik Stansiyasını sıradan çıxarmaq kimi təhdidlər də səsləndirirdi. Buraya, bu əraziyə düşən həm mərmilər, həm də ki, uzaqmənzilli raketlər bunun əyani sübutudur. Bu, dinc əhaliyə, mülki infrastruktura yönəlmiş təcavüz idi və hərbi cinayətdir. Ermənistanın hərbi cinayətləri təkcə bununla məhdudlaşmır. Həm Xocalı soyqırımını törədən, həm işğal dövründə bizim yaşayış məntəqələrimizi yerləyeksan edən, eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı Gəncəni, Mingəçeviri, Bərdəni, Tərtəri, Ağdamı və münaqişə zonasından kifayət qədər uzaqda yerləşən bir çox yaşayış məntəqələrini atəşə tutan Ermənistan hərbi cinayətkar dövlətdir”.





Dövlət başçısı vurğulayıb ki, bu bölgənin, bu infrastruktur obyektinin ölkəmiz üçün böyük əhəmiyyəti var. İndi isə biz sülh şəraitində yaşayırıq. Beş ildir ki, Azərbaycanda sülh tam təmin edilib və əlbəttə ki, hüdudlarımızın kənarında da nə qədər tez sülh təmin edilərsə, bir o qədər həm o ölkələr üçün, həm təbii olaraq, bizim üçün də yaxşı olacaq: “Ancaq reallıq budur ki, bu gün bizim ölkəmiz sabitlik, inkişaf, tərəqqi məkanı kimi dünya miqyasında tanınır və bu adı biz öz əməyimizlə, zəhmətimizlə, düşünülmüş siyasətlə qazanmışıq. Bu gün bu stansiyanın adının seçilməsi də çox vaxt aparmadı. Təklif edilən variantlar arasında “8 Noyabr”ı mən seçdim. Çünki bu, bizim şanlı Zəfərimizin tarixidir. Zəfər xalqımıza, dövlətimizə yaraşır. Əminəm ki, bu stansiyanın ömrü uzun və fəaliyyəti uğurlu olacaq”.

Tədbirdə İtaliyanın şirkətlər və “Made in Italy” naziri Adolfo Urso, İtaliyanın “Ansaldo Energia” şirkətinin baş icraçı direktoru Fabrizio Fabbri, Çinin “Dongfang” şirkətinin İdarə Heyətinin sədri Çen Qianq, “AzərEnerji” ASC-nin enerjinin istehsalı operatorunun direktoru Üzeyir Yusifov çıxış ediblər. Prezident İlham Əliyev və İtaliyanın şirkətlər və “Made in Italy” naziri Adolfo Urso stansiyanın açılışını ediblər. “8 Noyabr” Elektrik Stansiyasının inşasına həsr edilmiş videoçarx nümayiş olunub. Prezident İlham Əliyev və qonaqlar Vətən müharibəsi zamanı Ermənistan tərəfindən bu stansiyaya atılan raketin düşdüyü əraziyə baxdılar. Sonra dövlətimizin başçısı və açılışda iştirak edən qonaqlar stansiyanın ərazisini gəziblər.

# Dostluğun və uğurlu əməkdaşlığın göstəricisi...

## Prezident İlham Əliyev İtaliyanın şirkətlər və "Made in Italy" nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib





Prezident İlham Əliyev iyunun 24-də Mingəçevirdə İtaliya Respublikasının şirkətlər və "Made in Italy" naziri Adolfo Ursonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının Adolfo Urso ilə görüşləri məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyev Adolfo Ursoya "8 Noyabr" Elektrik Stansiyasının açılışında iştirakına görə minnətdarlığını bildirib, gələcəkdə də birgə layihələrin həyata keçiriləcəyinə ümidvarlığını ifadə edib.

Qonaq İtaliyanın "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakını ölkələrimiz arasında dostluğun və uğurlu əməkdaşlığın göstəricisi kimi dəyərləndirib.

Azərbaycana dəfələrlə səfər etdiyini xatırlayan Adolfo Urso bu tədbirdə iştirakdan məmnunluğunu bildirib. O, 2020-ci ildə Gəncə və Ağdam şəhərlərinə səfərinə toxunub.

Dövlətimizin başçısı Adolfo Ursonun işğaldan azad edilmiş torpaqlarımızda Avropa ölkəsini təmsil edən ilk xarici yüksəksəviyyəli şəxslərdən biri olduğunu vurğulayıb və buna görə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizdə hazırda genişmiqyaslı quruculuq işlərinin aparıldığını və orada artıq 3 beynəlxalq hava limanının istifadəyə verildiyini deyib.

Söhbət zamanı münasibətlərimizin strateji xarakter daşıdığı bildirilib, siyasi əlaqələrimizin çox yüksək səviyyədə olmasından məmnunluq ifadə edilib. Azərbaycan-İtaliya əməkdaşlığının daha da genişləndirilməsində yüksəksəviyyəli qarşılıqlı səfərlərin roluna toxunulub.

Görüşdə Hökumətlərarası Komissiyanın fəaliyyətinin vacibliyi bildirilib, enerji, o cümlədən bərpaolunan enerji, metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb, İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən bərpa və quruculuq işlərində iştirakı qeyd edilib. "AzərEnerji" ilə "Ansaldo Energia" şirkəti arasında əməkdaşlığın perspektivlərinə dair məsələlər müzakirə olunub.

# Prezident İlham Əliyev Çinin "Dongfang Electric International Corporation" Şirkətinin İdarə Heyətinin sədrini qəbul edib





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Mingəçevirdə Çinin "Dongfang Electric International Corporation" Şirkətinin İdarə Heyətinin sədri Çen Qianqı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə "Dongfang Electric International Corporation" şirkətinin "8 Noyabr" Elektrik Stansiyasının inşasında iştirakının roluna toxunulub, Azərbaycanla Çinin bu şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonda xatirə şəkli çəkdirilib.

# "Qərbi Azərbaycan İrsi" kitabının I cildinin təqdimat mərasimi olub

İyunun 24-də "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət rəsmiləri, alimlər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, xarici işlər nazirinin müavini Elnur Məmmədov, Baş prokurorun müavini Elmar Camalov, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Saməddin Əsədov, Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyəti sədrinin müavini Qaya Məmmədov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının üzvü professor Gülçöhrə Məmmədova, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geodeziya və Kartoqrafiya üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Nazim İsmayılov və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli tədbirdə çıxış edərək nəşrin mövzusunun əhəmiyyəti, məqsədi və aktuallığı barədə fikirlərini bölüşüblər.

Qeyd olunub ki, Ermənistan ərazisindən zorla çıxarılmış soydaşlarımızın beynəlxalq proses çərçivəsində təhlükəsiz və ləyaqətli şəkildə öz doğma torpaqlarına geriyə qayıtmaları, onların fundamental hüquqlarının bərpa və təmin edilməsi ölkəmizin prioritetləri arasındadır. Müxtəlif dövrlərdə soydaşlarımıza qarşı həyata keçirilən deportasiya nəticəsində onlara məxsus məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib. Qeyd edilən deportasiya siyasətinin son dalğası nəticəsində 300 minə yaxın insan öz dədə-baba torpaqlarından məcburi şəkildə çıxarılıb. Nəticədə Ermənistan regionda monoetnik dövlətə çevrilib.

Vurğulanıb ki, Qərbi Azərbaycandakı soydaşlarımıza qarşı beynəlxalq hüquqa zidd əməllərin cəzasız qalmasından ilhamlanan Ermənistan 30 ildən çox müddətə Azərbaycan torpaqlarını işğal altında saxlayıb. Ermənilər tərəfindən azərbaycanlılara qarşı yalnız etnik təmizləmə siyasəti həyata keçirilməyib, eyni zamanda, soydaşlarımıza məxsus maddi-mədəni irsin yer üzündən tamamilə silinməsinə yönəlik vandalizm aktları törədilib.

Bildirilib ki, qəbiristanlıqlar bir xalqın keçmişi, inancı və kollektiv yaddaşıdır. Ona görə də qəbiristanlıqları dağıtmaq həmin xalqın izlərini coğrafiyadan silmək cəhdidir. Bu, həm də hər kəsin bildiyi kimi beynəlxalq humanitar hüququn və insan hüquqlarının ciddi şəkildə pozulmasıdır.



Natiqlər qeyd ediblər ki, Ermənistan dünyada nadir monoetnik və monokonfessional bir cəmiyyət strukturuna malik dövlətdir. Bu da təbii olaraq orada başqa mədəniyyətə nifrət hissini alovlandırıb və hətta dövlət təbliğatının bir formasına çevirib. Bu əməllər təkcə tarixi ədalətin deyil, beynəlxalq hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyalarının, UNESCO konvensiyalarının və digər mühüm sənədlərin də kobud şəkildə pozulmasıdır.

Tədbirdə, həmçinin Qərbi Azərbaycanla bağlı videoçarx nümayiş olunub.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tövsiyəsi ilə Qərbi Azərbaycan ərazisində azərbaycanlıların tarixən yaratdığı dövlətçilik ənənələri, maddi və qeyri-maddi mədəni irsi, məruz qaldıqları tarixi ədalətsizliklər və cinayətlər, itirdikləri maddi-mənəvi sərvətlər haqqında davamlı tədqiqatlar aparılmaqdadır. Bu istiqamətdə müasir elmi yanaşmalara uyğun yeni fundamental araşdırma - "Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyası nəşr edilməyə başlanılıb. "Qərbi Azərbaycan İrsi: Ermənistanda azərbaycanlıların maddi-mədəni irsinin - qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildi seriyanın ilk nəşridir və Azərbaycan, ingilis, rus dillərində nəfis tərtibatla çap edilib.




Seriyanın 5 hesabatdan ibarət olması nəzərdə tutulub. I, II, III hesabatlarda Qərbi Azərbaycanda Ermənistan dövləti tərəfindən məqsədli şəkildə dağıdılan azərbaycanlılara məxsus qəbiristanlıqlar, IV hesabatda məscidlər, V hesabatda isə pirlər və türbələr öz əksini tapacaq.

Kitabın I cildində 1991-ci ilə qədər Qərbi Azərbaycan - indiki Ermənistan ərazisində mövcud olmuş, indi isə yalnız xarabalıqları qalmış 700-dən çox azərbaycanlı qəbiristanlığının 201-nin əvvəlki və indiki vəziyyətindən bəhs edilir.

Tədqiqat zamanı 1890-1991-ci illərdə Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib və nəşr edilən, uzun müddət məxfilik statusunda saxlanılan müxtəlif ölçülü 250-dən çox topoqrafik xəritədən, ötən əsrə və müasir dövrə aid Amerika Birləşmiş Ştatlarının kəşfiyyat peyklərinin təsvirlərindən, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycan arxivlərində saxlanılan sənədlərdən, Almaniya, ABŞ, Rusiya kitabxanalarındakı mənbələrdən, foto-video materiallardan, Ermənistandan deportasiya edilmiş azərbaycanlıların xatirələrindən istifadə edilib.

Araşdırmada istinad edilən xəritə kolleksiyaları Berlin Humboldt Universitetinin Coğrafiya Departamentindən, Greifsvald Universitetinin Coğrafiya və Geologiya İnstitutundan, İndiana Universitetinin Elmi Kitabxana Fondundan, ABŞ Milli Konqres Kitabxanasından, Rusiya Coğrafiya Cəmiyyətinin Tarixi kartoqrafiya bölməsindən toplanılıb.

Elmi əsərlərin yazılması üçün dünyada tanınan "Çikaqo 17 nəşr üslubu"nda hazırlanmış tədqiqat işində multispektral təhlil metodları mühüm yer tutur. Kitabda ABŞ Geoloji Xidmətinin EROS mərkəzindən əldə edilən "Landsat-4" və "Landsat-5" peyklərinin 3-cü və 4-cü sensorlarından alınmış multispektral təsvirlər əsasında landşaft transformasiyaları və bitki örtüyü dinamikası təhlil olunub. İnfraqırmızı və qırmızı spektral diapazonlarda aparılan analizlər torpaq örtüyündə və torpaq istifadəsindəki dəyişikliklərin, eləcə də qəbiristanlıqların landşaft mühitinin dəyişməsinin aşkarlanmasına imkan verib.

İki hissədən ibarət olan kitabın birinci hissəsində hesabatın məqsədi və tədqiqatın predmeti müəyyən edilir, tədqiqatın metodologiyasından bəhs olunur. İkinci hissədə isə Qərbi Azərbaycanın hər bir rayonu üzrə qruplaşdırılmış qəbiristanlıqların yerləşdiyi kəndlərin tarixi inkişafı, demoqrafik göstəriciləri, kəndlə bağlı toponimik və inzibati dəyişikliklər, əhalinin köç və deportasiya prosesi, qəbiristanlıq və digər mədəni irs obyektlərinin mövcud vəziyyəti sistemli şəkildə təqdim edilir.





## Milli Məclisin iclasında...

# Deputatlar 12 məsələni müzakirə ediblər



İyunun 24-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 12 məsələ daxil edilib. Əvvəlcə spiker Sahibə Qafarova bildirib ki, xalqımız iyunun 26-da Azərbaycan Silahlı Qüvvələri Gününü qeyd edəcək. Onun sözlərinə görə, 107 il öncə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaradılmış milli ordumuz şərəfli inkişaf yolu keçib. Xüsusən, Ulu Öndər Heydər Əliyevin həm sovet dövründə, həm də müstəqilliyin bərpasından sonra Azərbaycana rəhbərlik etdiyi illərdə ordunun kadr potensialının formalaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi, döyüş hazırlığının yüksəldilməsi istiqamətində böyük uğurlar əldə edilib.

Heydər Əliyev yolunu ordu quruculuğu sahəsində də layiqincə davam etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində və 1 günlük antiterror əməliyyatında göstərdiyi şücaət xalqımızın qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılıb.

S.Qafarova qeyd edib ki, 30 il ərzində Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas olunub: "Dövlətimizin ərazi bütövlüyünün bərpa olunması və tarixi ədalətin öz yerini tutması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış, ölümlə üz-üzə dayanmış əsgər və zabitlərimizin igidliyi və fədakarlığı heç zaman unudulmayacaq. Bu gün Silahlı Qüvvələrimiz Azərbaycanın müstəqilliyinin və suverenliyinin keşiyində sayıq dayanmışlar. Onlar işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri də layiqincə yerinə yetirirlər. Əminliklə söyləmək olar ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın ən güclü orduları sırasında öz yerini möhkəmləndirəcək". Spiker Silahlı Qüvvələr Günü münasibəti ilə Ali Baş Komandanı, bütün hərbi qulluqçuları təbrik edərək, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayıb.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. İlk olaraq, bir sıra qanun layihələri üçüncü oxunuşda qəbul edilib.

İclasda "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında Müqavilə"ni təsdiq edilib. Qeyd edək ki, sənəd 2025-ci il aprelin 23-də Pekin şəhərində imzalanıb.

Gömrük Məcəlləsinə təklif edilən dəyişikliklərə görə isə gömrük borcunun ödənilməsinə dair yeni qayda müəyyənləşir. Qanun layihəsinə əsasən, gömrük borcu hesablanmış gömrük ödənişləri üzrə borclu olan və ya bu Məcəllənin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə etməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə bilər. Fiziki şəxslər tərəfindən gömrük sərhədindən kommersiya məqsədləri üçün nəzərdə tutulmayan malların keçirilməsi ilə əlaqədar yarana biləcək gömrük ödənişləri sahibkarlıq subyekti olmayan fiziki şəxs, habelə bu Məcəllənin 258.1-ci maddəsində nəzərdə tutulmuş üsullardan istifadə edilməklə təminat verildikdə, həmin təminat üzrə öhdəlik daşıyan şəxslər tərəfindən ödənilə bilər. Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Deputatlar Torpaq Məcəlləsinə dəyişikliklər məsələsini də müzakirə ediblər. Qanun layihəsinə əsasən, təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə yaşayış evləri və çoxmənzilli yaşayış binaları bələdiyyə mülkiyyətində olan torpaq sahələrində tikildiyi hallarda bələdiyyəyə mütənasib dəyərdə dövlət mülkiyyətindən torpaq sahələrinin ayrılması dövlətin səlahiyyətləri sırasına daxil edilir. Qanuna görə, bələdiyyələrin ehtiyat fondunun özəlləşdirilə bilən torpaqları xüsusi mülkiyyətə bələdiyyənin qərarı (müqavilə) ilə, dövlət və ya bələdiyyə mülkiyyətində olan torpaqlar istifadəyə və icarəyə uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının və bələdiyyənin qərarı (müqavilə) ilə verilir. Həmin qərarda yerli şərait, torpaq ehtiyatının miqdarı, əhalinin sıxlığı nəzərə alınmaqla, mövcud texniki normalara, habelə yerquruluşu və şəhərsalma layihə sənədlərinə uyğun olaraq, verilən torpaq sahələrinin ölçüləri müəyyən edilir.

İclasda "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlara da dəyişikliklər birinci oxunuşda qəbul olunub. Layihəyə əsasən, qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrdən irəli gələrək bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılması məhdudlaşdırılır. Bu dəyişiklik sadalanan xidmətlərdə şəffaflığın təmin edilməsi məqsədi daşıyır. Xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında qeydiyyata alınmamış müqavilə üzrə xidmətlər göstərən və ya işlər görən, yaxud bununla əlaqədar maliyyə vəsaiti və (və ya) başqa maddi formada vəsaiti və başqa maddi formada vəsait qəbul edilməsi müvafiq qaydada inzibati məsuliyyətə səbəb olacaq.

Qeyd edək ki, deputatlar gündəlikdə olan digər qanun layihələrini də qəbul ediblər. Sonda spiker S.Qafarova parlamentin növbəti iclasının iyulun 4-də keçiriləcəyini bildirib.

***Nardar BAYRAMLI***

# YAP Gənclər Birliyinin iclası keçirilib



**İyunun 24-də Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib. İclasın gündəliyinə əsasən 2025-ci ilin yanvar-may ayları ərzində YAP Gənclər Birliyinin fəaliyyəti ətrafında fikir mübadiləsi aparılıb.**

**YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov qeyd edib ki, 2025-ci ilin ilk beş ayında Birliyin fəaliyyəti partiyanın Mərkəzi Aparatının müəyyən etdiyi prioritetlərə uyğun təşkil olunub. O, gənclərin ictimai-siyasi fəallığının artırılması, intellektual və yaradıcı təşəbbüslərinin dəstəklənməsi məqsədilə müxtəlif layihələrin reallaşdırıldığını bildirib.**

**İclas zamanı 2025-ci ilin ikinci yarısında həyata keçirilməsi nəzərdə tutulan Tədbirlər Planı ətrafında müzakirələr aparılıb. Ali təhsil müəssisələrində fəaliyyət göstərən "YENİ Klub"ların əhatə dairəsinin genişləndirilməsi, gənclərin liderlik və təşəbbüskarlıq bacarıqlarının inkişafı, eləcə də rəqəmsal və sosial mövzulara dair maarifləndirici layihələrin təşkili ilə bağlı təkliflər irəli sürülüb və müvafiq qərarlar qəbul edilib.**

# Beynəlxalq təşkilatların fəal üzvü...

## Azərbaycan aparıcı regional aktor kimi qlobal təhlükəsizliyə töhfə verir

Qlobal təzadların artması, hərbi qarşıdurmaların geocoğrafiyasının genişlənməsi artıq danılmaz həqiqətə çevrilib. Yaşadığımız dövrdə bir çox hallarda hətta lokal, regional və ya qlobal təmaslar belə artıq müəyyən çərçivələr, maraqlar nəzərə alınır - etiraf olunmalıdır ki, beynəlxalq münasibətlər sistemində uğurlu təmsilçilik olduqca çətin bir hal alıb. Bəzən iqtisadi baxışlar, bəzən siyasi situasiya, bəzən təhlükəsizlik amili, bəzən isə ikitərəfli münasibətlərdə ortaya çıxan ziddiyyətlər maraqların kəsişməsinə, üst-üstə düşməsinə imkan vermir. Beləliklə, qütbləşmə və ya daha konkretləşdirsək fikir ayrılığı bütün sferalar üzrə dərinləşməkdə davam edir. Belə bir mənzərədə regional aktor kimi önə çıxmaq olduqca çətin görünür. Yaranan reallıqlar nəticə etibarı ilə belə bir fon yaradır - hər bir ölkə və ya təşkilat məhdud çevrə üzrə əlaqələr sistemi qurmaq məcburiyyətindədir.

### Uğurlu xarici siyasət...

Amma Azərbaycanın apardığı uğurlu xarici siyasət kursu bu yeksənəqliyi darmadağın edir - çoxvektorlu xarici siyasətimiz ölkəmizin dünya miqyasında siyasi-iqtisadi nüfuzunun gündən-günə artmasında əsaslı şərt kimi çıxış edir. Əldə olunan yüksək iqtisadi göstəricilər, diplomatik uğurlar, regionda formalaşdırılan və təhlükəsizliyə istiqamətlənən yeni siyasi reallıqlar, eyni zamanda, fərqli coğrafiyaların enerji təminatında oynadığı əhəmiyyətli rol Azərbaycana olan qlobal marağın artmasını şərtləndirib. Eyni zamanda, Azərbaycanın yeni mərhələdə formalaşan iqtisadi-siyasi, ticari münasibətlər sisteminə verdiyi töhfələr, qlobal təhlükəsizliyin təmini istiqamətində təşəbbüsləri beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Bu isə nəticədə ölkəmizə olan müsbət maraqları artırır. Burada əsas məqamlardan biri də Azərbaycanın beynəlxalq münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı təbliğ etməsi və beynəlxalq statusa malik təşkilatlarda uğurlu təmsilçiliyidir. Azərbaycanın dünyada cərəyan edən iqtisadi-ticari proseslərə aktiv müdaxilə imkanına malikdir.  Nəticə isə göz önündədir - bu gün ABŞ, Aİ, Türkiyə, İslam dünyası, Mərkəzi Asiya, Uzaq Şərq, Rusiya, Çin, hətta fərqli qitələrin təmsilçiləri və təşkilatlar Azərbaycanın apardığı uğurlu siyasətin dəstəkçisi, tərəfdaşı kimi çıxış edir.  Beləliklə, Azərbaycanın beynəlxalq aləmlə əlaqələri və əməkdaşlıq coğrafiyası genişlənməkdədir.



Bu mənada ölkəmizin İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətləri xüsusi məna daşıyır. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra keçmiş sovet respublikaları arasında ilk olaraq İslam Əməkdaşlıq Təşkilatına üzvlüklə bağlı müraciət ünvanlayıb və 1991-ci il dekabrın 8-də qurumun Dakarda keçirilmiş dövlət və hökumət başçılarının 5-ci konfransında təşkilata tamhüquqlu üzv qəbul edilib. Ötən dövrdə Azərbaycanın müsəlman dünyasında böyük nüfuza malik dövlətə çevrilməsi ölkəmizin apardığı siyasətin məntiqi nəticəsidir.

Öz növbəsində, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanın beynəlxalq səviyyədə İslam və digər sivilizasiyalar arasında əməkdaşlığın möhkəmlənməsinə verdiyi töhfələri yüksək dəyərləndirir. Qurum Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın apardığı işğalçılıq siyasətini də həmişə birmənalı şəkildə pisləyib, bununla bağlı müxtəlif qətnamələr qəbul edib.

### 2026-cı ildə Azərbaycanda...

Vurğulayaq ki, Azərbaycan İƏT çərçivəsində əməkdaşlığa böyük önəm verir və təşkilatın səmərəli fəaliyyət göstərməsində maraqlıdır. Ölkəmiz 2006 və 2012-ci illərdə İƏT Zirvə Toplantılarına ev sahibliyi edib. Bu tədbirlərdə qəbul olunan sənədlərdə üzv ölkələr arasında bir sıra sosial-iqtisadi və siyasi əlaqələrin əsas prinsipləri, regional münasibətlərin prioritetləri və istiqamətləri öz əksini tapıb.

Yeri gəlmişkən, bir neçə gün öncə İƏT-in Nazirlər Şurasının İstanbul şəhərində 51-ci sessiyası keçirilib. Sessiyada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov iştirak və çıxış edib. Çıxışda İƏT coğrafiyasında artan geosiyasi gərginliklərin fonunda meydana gələn siyasi, iqtisadi, humanitar, ətraf mühit və təhlükəsizlik çağırışları, onlarla mübarizədə əməkdaşlıq, habelə postmünaqişə dövründə regional vəziyyətdən bəhs olunub. Ceyhun Bayramov qarşıdan gələn İƏT sədrliyi münasibətilə qardaş Türkiyə Respublikasını təbrik edib, ölkəmizin Türkiyənin sədrlik prosesinə dəstək göstərməyə hazır olduğunu bildirib. Azərbaycanın 2026-cı ildə təhvil alacağı İƏT sədrliyini İslam dünyasının həmrəyliyi və inkişafına töhfə vermək üçün ciddi tarixi fürsət olaraq dəyərləndirdiyi qeyd olunub.

Xatırladaq ki, 2024-cü il mayın 4-də Qambiya Respublikasında İslam Əməkdaşlıq Təşkilatının 15-ci İslam Sammitində 2026-cı ildə İƏT-in 16-cı İslam Sammitinin Azərbaycanda keçirilməsi təsdiqlənib. Bu isə təşkilatla Azərbaycan arasında müxtəlif istiqamətli əlaqələrin inkişafının növbəti təsdiqidir.

### İslamofobiyanın bütün forma və təzahürlərini pisləyirik...

Təəssüfləndirici haldır ki, son illərdə dünyada islamofob meyllərin artdığı müşahidə olunur. Ölkələrdə yaşanan daxili, ictimai və siyasi proseslərdə əsasən islamofobiya  və miqrant əleyhinə fəaliyyətlər aktuallığını saxlayır. Bəzi ölkələrdə onsuz da İslam dininə münasibət çox isti olmasa da, cəmiyyətdə açıq şəkildə qıcıq yaradan və diskriminasiyaya yönəlik çağırışlar son illərdə daha davamlı xarakter alıb. İslamofob fikirlər nəinki cəmiyyətin, hətta bəzi ölkələrin rəsmilərinin, siyasətçilərin leksikonunda yer tapmağa başlayıb. Bütün bunlar isə ümumilikdə, İslama qarşı kampaniya təəssüratı formalaşdırır - islamofob meyillərin artdığını təsdiqləyir.

Azərbaycan hər zaman islamofobiya ilə mübarizə aparır, xaricdə islam mədəniyyətinin təbliğinə böyük önəm verir. Azərbaycan dinlər və mədəniyyətlər arası əlaqələrin möhkəmlənməsinə xidmət edir. Eyni zamanda, ölkəmiz islam həmrəyliyinin gücləndirilməsi, islam dəyərlərinin təbliği istiqamətində dünyada fəal iş aparır. Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoqda oynadığı mühüm rolla bütün dünyada nümunə göstərilir. Nazir C.Bayramov da çıxışında dünyada artan İslamofobiya meyllərinin narahatlıq doğurduğunu, ölkəmizin bu təhdidin bütün forma və təzahürlərini qətiyyətlə pislədiyini və İslamofobiya ilə mübarizədə İƏT çərçivəsində göstərilən təşəbbüsləri dəstəklədiyini vurğulayıb.



### Diplomatik prosesin bərpasının tərəfdarıyıq

Azərbaycan bütövlükdə, eskalasiyaların əleyhinədir - 30 ilə yaxın işğaldan əziyyət çəkən bir ölkə kimi biz problemlərin, xüsusilə hərbi qarşıdurmaların sülh yolu ilə tənzimlənməsinin tərəfdarıyıq. Son günlərdə İran ilə İsrail arasında gedən hərbi münaqişənin də tənzimlənməsi üçün çağırışlar etmişik. XİN-in bununla bağlı bəyanatında da vurğulanıb ki, İsrail Dövləti tərəfindən İran İslam Respublikasının ərazisinə qarşı həyata keçirilmiş hərbi əməliyyatlardan ciddi şəkildə narahatıq. Azərbaycan vəziyyətin gərginləşdirilməsini qəti şəkildə pislədiyini, tərəfləri mövcud fikir ayrılıqlarını yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, dialoq və diplomatik yollarla həll etməyə çağırıb. 51-ci sessiyada da XİN başçısı bir daha Yaxın Şərqdə gərginliyin coğrafiyasının genişlənməsinin, İran İslam Respublikasına qarşı həyata keçirilmiş hərbi əməliyyatların narahatlıq doğurduğu, ölkəmizin beynəlxalq hüququn norma və prinsipləri əsasında diplomatik prosesin bərpasına çağırış etdiyi bildirilib.



Vurğulandığı kimi, ölkəmiz hər zaman sülh və sabitlik üçün səy göstərir - bu mövqe cənubi Qafqazda əbədi və dayanıqlı sabitliyin formalaşdırılması prosesində də özünü göstərir. Sülh danışıqları 2022-ci ildən etibarən mühüm bir yol qət edib. Artıq sülh sənədinin 17 maddəsinin hər biri razılaşdırılıb - sülhün imzalanmasına isə cəmisi bir addım qalıb. Ermənistanın bu "bir addım"ı atması bölgədə daimi və əbədi sülhün yaranmasına yol açacaq. Bunun üçün Ermənistan Konstitusiyasında dəyişiklik edilməli, həmçinin ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Tədbirdə çıxışında da nazir Ceyhun Bayramov postmünaqişə dövründə regional bərpa, quruculuq və sülh səyləri, habelə normallaşma prosesini təhdid edən çağırışlardan ətraflı bəhs edib. Ermənistan konstitusiyasında Azərbaycana qarşı mövcud ərazi iddiaları, keçmiş

### Sülh üçün...

münaqişənin qalığı olan ATƏT-in Minsk Qrupu kimi qurumların hələ də ləğv olunmamasının sülh sazişinin imzalanmasının qarşısını aldığı diqqətə çatdırılıb. Ermənistanın Azərbaycan və Naxçıvan arasında maneəsiz əlaqənin təmin olunması öhdəliyini yerinə yetirməməsi barədə məlumat verilib.

### Azərbaycan mövqeyində qətidir...

Ceyhun Bayramov ölkəmizin Cammu və Kəşmir münaqişəsinin BMT Təhlükəsizlik Şurası, o cümlədən İƏT-in müvafiq qətnamələrinə uyğun olaraq, sülh yolu ilə həllini tam dəstəklədiyini də qeyd edib, 10 may 2025-ci il tarixində əldə olunmuş atəşkəs razılaşmasının əhəmiyyətini vurğulayıb.

Bəli, Azərbaycanın Cammu və Kəşmir məsələsində mövqeyi dəyişməzdir. Dövlətimizin mövqeyi həmişə ardıcıl olub - biz bu məsələdə Pakistanın yanında olduğumuzu bəyan edirik. Vurğulanmalıdır ki, Azərbaycan bu problemin beynəlxalq hüququn norma və prinsipləri və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında, habelə beynəlxalq humanitar hüquqa tam hörmətlə yanaşılmaqla sülh yolu ilə həllinin tərəfdarı kimi çıxış edir.

**P.İSMAYILOV**



# Azərbaycanla Çin arasında viza rejiminin ləğvi ilə bağlı saziş gələn ay qüvvəyə minəcək

Aprelin 23-də Pekin şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Çin Xalq Respublikası Hökuməti arasında ümumvətəndaş pasportlarına malik vətəndaşların vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili proseduralar tamamlanıb.

Azərbaycan Xarici İşlər Nazirliyindən bildirilib ki, bununla da müvafiq müddəaya uyğun olaraq, saziş iyulun 16-dan qüvvəyə minir.

Sazişə əsasən, Azərbaycan Respublikasının etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları və Çin Xalq Respublikasının etibarlı ümumvətəndaş pasportlarına malik vətəndaşları digər ölkə ərazisinə daxil olmaq, oranı tərk etmək və yaxın tranzit keçmək üçün hər səfər ərzində otuz (30) gündən çox olmamaqla və hər yüz səksən (180) günlük dövr ərzində ümumilikdə, doxsan (90) gün müddətini aşmamaqla viza tələbindən azad edilir.

# Ermənistan narahatdır

## Qərbi azərbaycanlıların hüquqlarının bərpasına beynəlxalq müstəvidə dəstək...

Qərbi azərbaycanlıların doğma yurdlarına qayıtması onların fundamental hüququdur. Bu məsələ dövlətimiz tərəfindən müxtəlif beynəlxalq platformalarda daim gündəmə gətirilir. İyunun 22-də İstanbulda keçirilən İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Xarici İşlər Nazirləri Şurasının 51-ci sessiyasının yekununda ilk dəfə olaraq Qərbi Azərbaycan İcması ilə bağlı qətnamənin qəbul olunması da bu baxımdan böyük uğurdur. Belə ki, İƏT çərçivəsində ilk dəfə olaraq qəbul olunan “Hazırkı Ermənistan ərazilərindən zorla və sistematik şəkildə didərgin salınmış azərbaycanlıların qayıdış hüququ” adlı qətnamədə təşkilata üzv ölkələrin Qərbi Azərbaycan İcmasının öz yurdlarına ləyaqətli qayıdış hüququna dəstəyi ifadə olunur, habelə Ermənistan tərəfindən sözügedən İcmanın hüquqlarının inkar olunması qınanılır.

Qeyd edilən qətnamə ilə yanaşı, “İstanbul Bəyannaməsi”ndə də Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesində əldə olunan irəliləyişlər alqışlanır, Ermənistan tərəfinə sülh müqaviləsinin imzalanmasının qarşısında duran siyasi və hüquqi çağırışların aradan qaldırılması ilə bağlı çağırış edilir. Sənəddə, o cümlədən indiki Ermənistan ərazilərindən zorla qovulmuş azərbaycanlıların geri qayıdış hüququnun mövcudluğu təsdiqlənir və Ermənistan tərəfinin Qərbi Azərbaycan İcması ilə dialoqu rədd etməsi qınanılır.

### Ermənistan XİN-in absurd bəyanatı...

İƏT-in qəbul etdiyi bu sənədlər Ermənistanda təşvişə səbəb olub.



Bu ölkənin Xarici İşlər Nazirliyinin yaydığı bəyanatdan aydın görünür ki, tarixi həqiqətlərin təşviqi, o cümlədən Qərbi azərbaycanlıların hüquqlarının bərpasına beynəlxalq müstəvidə daha güclü dəstək verilməsi rəsmi İrəvanı ciddi narahat edir. Belə ki, Ermənistan XİN İƏT tərəfindən belə bir qətnamənin qəbul olunmasından “dərin məyusluq hissi keçirdiyini” bildirib. Ermənistan XİN-in bəyanatında Xocalı soyqırımı, mədəni dəyərlər haqqında faktlar da təhrif olunur. Rəsmi İrəvan nə qədər absurd olsa da, hətta qətnamələrə qoşulmuş İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətləri “Ermənistanın ərazi bütövlüyü və suverenliyini hədəfləyən, Ermənistan və Azərbaycan arasında nizamlanma prosesinə xələl gətirən qərəzli təşəbbüslərə yenidən baxmağa və qətiyyətlə imtina etməyə” çağırıb.

### Rəsmi Bakı: Bu, Qərbi azərbaycanlıların hüquqlarının bərpasına çağırışdır...

Azərbaycanın Xarici İşlər Nazirliyi isə erməni tərəfinin iyunun 23-də verdiyi əsassız bəyanatı qətiyyətlə rədd edib. Nazirliyin mətbuat katibi Ayxan Hacızadə bildirib ki, Ermənistanın bu sənədlərin məzmununu təhrif etmək və tarixi faktları saxtalaşdırmaq cəhdi onun sülh prosesinə xələl gətirmək və beynəlxalq ictimaiyyəti çaşdırmaq səylərinin daha bir nümunəsidir. Onun sözlərinə görə, İƏT-in qəbul etdiyi qətnamələr, o cümlədən “indiki Ermənistan ərazisindən zorla və sistemli şəkildə qovulmuş azərbaycanlıların geri qayıtmaq hüququ” adlı qətnamə tarixi faktları əks etdirir və beynəlxalq hüquqa, ədalət prinsiplərinə əsaslanır. Ermənistanın iddialarının əksinə olaraq, azərbaycanlıların indiki Ermənistandan sistemli şəkildə qovulması könüllü deyil, zorakılıq, hədə-qorxu və insan hüquqlarının kobud şəkildə pozulması ilə yadda qalıb. İƏT-in azərbaycanlıların geri qayıtmaq hüququnu dəstəkləməsi Ermənistanın əsassız şəkildə təqdim etdiyi “ərazi iddiası” deyil, ədalətə və onların fundamental hüquqlarının bərpasına çağırışdır.

A.Hacızadə qeyd edib ki, təxminən 30 il ərzində Azərbaycan ərazilərini qanunsuz işğal altında saxlayan və 700 mindən artıq azərbaycanlını köçkün vəziyyətinə salan Ermənistanın Azərbaycanın 2023-cü ildə ərazi suverenliyinin bərpası istiqamətində həyata keçirdiyi antiterror tədbirlərinə dair irəli sürdüyü iddialar da eyni dərəcədə əsassızdır. İƏT-in Xocalı soyqırımı ilə bağlı Ermənistanın “təhrif olunmuş şərh” kimi rədd etdiyi qətnaməsi 1992-ci ilin fevralında Xocalıda qadın və uşaqlar daxil olmaqla, 613 dinc sakinin vəhşicəsinə qətlə yetirilməsi zamanı Ermənistan silahlı qüvvələrinin törətdiyi qəddarlıq barədə danılmaz həqiqəti bir daha təsdiq edir.



İnsanlıq əleyhinə bu cinayət beynəlxalq insan haqları təşkilatları tərəfindən sənədləşdirilib və bir çox ölkələr tərəfindən tanınıb. Ermənistanın bu və digər hərbi cinayətlərə, o cümlədən işğal zamanı Azərbaycanın mədəni irsinin dağıdılmasına görə məsuliyyətini etiraf etməkdən yayınması onun sülh prosesində etibarını daha da sarsıdır.

“Ermənistanın sülhə sadiqlik iddiası onun hərəkətləri ilə uyğun gəlmir. Azərbaycan ardıcıl olaraq, ərazi bütövlüyü və suverenliyə qarşılıqlı hörmət əsasında hərtərəfli sülh sazişinin tərəfdarı olduğu halda, Ermənistan dəfələrlə kritik məsələlər üzrə qeyri-konstruktiv mövqe nümayiş etdirməklə tərəqqiyə mane olub. İƏT-in Ermənistanı gecikmədən sülh sazişinin imzalanmasına maneələri aradan qaldırmağa çağırması beynəlxalq ictimaiyyətin Cənubi Qafqazda davamlı sabitliyi təmin edən həll üzrə gözləntiləri ilə üst-üstə düşür. Ermənistanın İƏT-in prinsipial mövqeyini siyasiləşdirmək və öz hərəkətlərinə görə məsuliyyətdən yayınmaq cəhdləri Azərbaycanı ədalətli və davamlı sülh əldə etmək səylərindən çəkindirməyəcək. Ermənistanı revizionist ritorikasından əl çəkməyə və tarixi məsuliyyətlərini etiraf etməyə çağırırıq”, - deyə XİN rəsmisi vurğulayıb.

### İcma: “Kompensasiya” ilə bağlı Ermənistan heç bir sübut ortaya qoymayıb

Qərbi Azərbaycan İcması da Ermənistan Xarici İşlər Nazirliyinin bəyanatını sərt şəkildə qınayıb. Məsələ ilə bağlı İcmadan verilən məlumata görə, Ermənistan Xarici İşlər Nazirliyi sözügedən bəyanatında Qərbi azərbaycanlıların Ermənistandan guya könüllü köçdüklərini, Ermənistan tərəfindən onlara kompensasiya ödəndiyini və bu ölkədəki Azərbaycan mədəni irsinin qorunduğunu iddia edir: “Ermənistandan zorla çıxarılmış azərbaycanlıları özündə birləşdirən Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin bu bəyanatının başdan-başa yalan olduğunu bildirir. Azərbaycanlıların Ermənistandan bu ölkənin hakimiyyət orqanlarının birbaşa iştirakı ilə, zor tətbiq etməklə çıxarılması hamıya məlum olan faktdır. Sonuncu deportasiya dalğasında azərbaycanlıların əksər hissəsinin - 300 minə yaxın insanın 1988-ci ilin noyabr ayının sonu, dekabr ayının əvvəlində cəmi bir həftə ərzində öz evlərini tərk edib Azərbaycana qaçmağa məcbur qalmaları, bu proses zamanı 216 nəfər azərbaycanlının qətlə yetirilməsi bu köçün zorakı deportasiya olmasını sübut edir. Ermənistanın keçmiş prezidenti Levon Ter-Petrosyanın azərbaycanlıların Ermənistandan qovulmasını “tarixi uğur” kimi təqdim etməsi, sözügedən faciənin Ermənistanın dövlət siyasəti olduğunu göstərir. Qayıdış hüququndan imtina müqabilində “kompensasiya” ödənilməsi barədə iddiaya gəlincə, qeyd edək ki, ilk dəfə Ermənistanın Baş naziri səviyyəsində 2023-cü ilin avqust ayında irəli sürülmüş bu yalanla bağlı Ermənistan tərəfi hələ də bir sübut ortaya qoymayıb”.

Ermənistan ərazisindəki müsəlman irsi ilə bağlı İcma bəyan edib ki, bu ölkə ərazisində dövlət qeydiyyatına alınmış 269 məsciddən 268-i, 700-ə yaxın məzarlıq isə yer üzündən silinib. Qeyd olunub ki, Ermənistan hökumətinin yalana söykənərək qayıdış hüququmuzu inkar etməsi, dialoqdan yayınması bu ölkənin sülh və barışıq niyyətində olmadığını göstərir. Ermənistanın hazırkı hökuməti Qərbi azərbaycanlıların qayıdış hüququnu inkar etməklə əvvəlki hökumətlərin siyasətlərini davam etdirir.

Qərbi Azərbaycan İcması bir daha bəyan edib ki, haqq-ədalətin öz yerini tutması, öz ata-baba yurdlarından zorla çıxarılmış Qərbi azərbaycanlıların öz evlərinə qayıtması, dağıdılmış mədəni irsin bərpası və insanlıq əleyhinə cinayət törədənlərin məsuliyyətə cəlb olunması üçün səylərini davam etdirəcək. İcma beynəlxalq ictimaiyyəti Ermənistan hökumətinə destruktiv siyasətindən əl çəkməsi üçün təzyiq göstərməyə, bütün dövlətləri, beynəlxalq təşkilatları Ermənistan Xarici İşlər Nazirliyinin iyunun 23-də verdiyi sözügedən bəyanatını bu dövlətin irqi ayrı-seçkilik siyasətini sübut edən dəlil kimi pisləməyə çağırıb.

**Nardar BAYRAMLI**

# Güclü dövlət, güclü ordu...

Müzəffər Azərbaycan Ordusu müxtəlif mərhələlərdən keçərək formalaşıb və güclənib. Bu siyasətin əsası isə böyük siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndərin hələ 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gəlişindən sonra Onun müstəsna xidmətləri sayəsində respublikamızda hərbi kadrların hazırlanması prosesi start götürüb. Heydər Əliyev 1971-ci ildə böyük səylər hesabına Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail olub. Heydər Əliyevin səyləri sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərində oxuması, eləcə də SSRİ-nin digər hərbi məktəblərində güzəştli şərtlərlə təhsil almaları mümkün oldu.



Böyük siyasətçi Heydər Əliyevin ordu quruculuğu sahəsində genişmiqyaslı fəaliyyətinin ikinci mərhələsi Azərbaycanın müstəqilliyinin ilk illərinə təsadüf edir. 1993-cü ilin yayında Azərbaycan XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir şəraitdə Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycanın siyasi rəhbərliyinə qayıtdı və xilaskarlıq missiyasını yerinə yetirdi. Həmin dövrdə nizami ordudan əsər-əlamət yox idi. Müxtəlif hərbi dəstələr ayrı-ayrı qüvvələr tərəfindən idarə olunurdu. Bundan istifadə edən düşmənin torpaqlarımıza təcavüzü getdikcə daha geniş miqyas alırdı. Belə bir ağır vaxtda xalqın çağırışı ilə hakimiyyətə qayıdan Heydər Əliyev başıpozuq silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi. Azərbaycan Milli Ordusunun formalaşması prosesində yeni mərhələ başladı. 1994-cü ilin mayında atəşkəs haqqında müqavilə imzalandıqdan sonra Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasına imkan yarandı. Heydər Əliyevin siyasi iradəsi əsasında Ordunun maddi-texniki təminatının yaxşılaşdırılmasına, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılmasına və döyüş ruhunun yüksəldilməsinə xüsusi diqqət yetirilirdi - 1999-cu il fevralın 20-də Hərbi Akademiyanın yaradılması haqqında Fərman imzalandı. Eyni zamanda, Ordu quruculuğu prosesinin beynəlxalq standartlara uyğunlaşdırılmasına başlanıldı. 1994-cü ilin əvvəllərində Azərbaycan NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramına, bu əməkdaşlığın davamı olaraq 1996-cı ildə “Planlaşdırma və analiz prosesi” proqramına, 2001-ci ildə isə “Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı”na qoşuldu. İl ərzində 2 mindən çox Azərbaycan hərbçisi NATO proqramlarında və digər ikitərəfli əməkdaşlıq proqramlarında iştirak edərək ən son hərbi yenilikləri mənimsədilər.

**Planlı şəkildə aparılan ordu quruculuğu...**

Prezident İlham Əliyev dövlət başçısı seçildiyi ilk dövrlərdən başlayaraq ordu quruculuğu siyasətini yeni, müasir çağırışlara uyğun şəkildə davam etdirdi. Son 20 ildən artıq müddətdə ölkənin iqtisadi-maliyyə imkanlarının getdikcə artması fonunda ordunun müasirləşdirilməsi, maddi-texniki təchizatının möhkəmləndirilməsi, kadr hazırlığı, hərbiçilərin sosial vəziyyətinin yaxşılaşdırılması həmişə dövlət siyasətinin vacib istiqaməti kimi öndə saxlanılıb. Dövlətimizin başçısının siyasi iradəsinə uyğun olaraq büdcənin xərc istiqamətlərində ordu quruculuğunun prioritetliyi həmişə nəzərə alınır. 2003-cü ildən bəri ölkəmizdə hərbi xərclər təxminən 40 dəfə artırılıb. Respublikamız ayrı-ayrı ölkələrlə və qabaqcıl istehsalçılarla müasir silahların tədarükü üzrə geniş əməkdaşlıq əlaqələrinə malikdir. Qısa müstəqillik tarixində Azərbaycanın paralel şəkildə yerli müdafiə təyinatlı sənaye quruculuğuna nail olması, ölkəmizdə təxminən mindən çox hərbi təyinatlı məhsul istehsalını mənimsəməsi son dərəcə qürurverici haldır. Prezident İlham Əliyevin 16 dekabr 2005-ci il tarixli Sərəncamına əsasən, Müdafiə Sənayesi Nazirliyinin (MSN) yaradılması ilə ölkəmizdə ordu quruculuğunda keyfiyyətcə yeni mərhələ başladı. Artıq ölkəmizdə hərbi-sənaye kompleksinə aid müxtəlif müəssisələr uğurla fəaliyyət göstərir. Bu müəssisələrdə aviasiya, naviqasiya, cihazqayırma və digər hərbi təyinatlı məhsulların istehsalı ildən-ilə genişlənir, eyni zamanda, ən yeni nəsil müasir texnologiyalar istehsalata tətbiq olunur. Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində buraxılan müxtəlif növ silahlar və digər avadanlıqlar, eləcə də müxtəlif növ PUA-lar yüksək texniki imkanlara malikdirlər. Bu silahların bir çoxunun üstünlükləri Vətən müharibəsində öz təsdiqini tapıb. Qürurverici haldır ki, bu gün dünya reytinqində öncül yerlərdən birini tutan Silahlı Qüvvələrimiz regionun aparıcı Ordusu kimi qəbul olunur.

**Azərbaycanın tam Qələbəsi**



Bu gün heç bir mübaliğəyə yol vermədən Müzəffər Silahlı Qüvvfələrimizi Zəfər salnaməsi yazan ordu kimi səciyyələndirə bilərik. 2016-cı ilin Aprel döyüşləri ordumuzun gücünü düşmənə göstərdi. 2016-cı ilin 2 aprel tarixində Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Tərtər rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi.




Silahlı Qüvvələrimiz 2020-ci il 27 sentyabr tarixində əks-hücum əməliyyatı ilə başlayan 44 günlük Vətən müharibəsində düşmən üzərində Qələbə çalaraq tarixi nailiyyətə imza atdı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Vətən müharibəsinin nəticələrinə uyğun olaraq Azərbaycan ərazi bütövlüyünün təmin edilməsinə hərbi-siyasi yolla nail oldu.

Nəhayət, ordumuzun 2023-cü il sentyabrın 19-20-də keçirdiyi lokal xarakterli antiterror tədbirlərini yada salaq. Silahlı Qüvvələrimizin cəmi 23 saat ərzində yüksək peşəkarlıqla həyata keçirdiyi antiterror tədbirləri separatçıların ağ bayraq qaldırmaları ilə nəticələndi. Bununla da ölkənin bütün ərazisində Azərbaycanın suverenliyi təmin edildi. Azərbaycanın əldə etdiyi zəfərlər tam qələbələrdir. İkinci Dünya müharibəsindən sonra baş vermiş müharibələrdə, demək olar ki, döyüşən tərəflərdən heç biri tam qələbə əldə etməyib. Buna nümunə kimi, ayrı-ayrı vaxtlarda Vyetnamda, Əfqanıstanda, İraqda və digər ünvanlarda aparılan müharibələri göstərmək olar. Azərbaycan isə çox qısa müddətdə düşməni kapitulyasiyaya məruz qoymağı bacardı ki, bu da ilk növbədə Ordumuzun gücü sayəsində mümkün oldu.

**Mübariz ABDULLAYEV**

# Azərbaycan-Səudiyyə Ərəbistanı: İqtisadi əməkdaşlığın yeni hədəfləri

## Tərəflər birgə investisiya fondu yaratmaqla sərmayə layihələri həyata keçirmək niyyətindədir

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında birgə əldə olunan iqtisadi planların həyata keçirilməsi istiqamətində davamlı səylər gücləndirilib. Həmin hədəflərdən biri iki ölkə arasında birgə investisiya fondunun yaradılmasıdır. Azərbaycanın Ər-Riyaddakı səfiri Şahin Abdullayev Səudiyyə Ərəbistanının Londonda nəşr olunan "əş-Şarq əl-Avsət" qəzetinə müsahibəsində bildirib ki, Azərbaycan-Səudiyyə Ərəbistanı Hökumətlərarası Müştərək Komissiyasının 8-ci iclasında bu barədə qarşılıqlı razılıq əldə olunub. Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov birgə suveren investisiya fondunun yaradılması və üçüncü ölkələrdə də birgə investisiya layihələrinin həyata keçirilməsinin mümkünlüyünü vurğulayıb.

Yeri gəlmişkən, ötən gün Milli Məclisin Səudiyyə Ərəbistanı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupu və Səudiyyə Ərəbistanı Şura Məclisinin Azərbaycanla parlamentlərarası dostluq qrupu arasında onlayn formatda keçirilən görüşündə ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin artırılması prioritetlərinə toxunulub.

### Çoxşaxəli münasibətlər...

Azərbaycan və Səudiyyə Ərəbistanı arasında dərin hörmət və sıx dostluğa əsaslanan münasibətlər son illərdə inkişaf edərək bütün sahələrdə irəliləməkdədir. İki ölkənin dövlət başçılarının, hökumət üzvlərinin, iqtisadi qurumları və biznes nümayəndələrinin birgə səfərlərinin intensiv xarakter alması və aparılan faydalı müzakirələr ticarət, iqtisadiyyat, enerji, ətraf-mühit kimi sahələrdə əməkdaşlıq üçün yeni qapılar açmaqdadır.

Bir neçə ilə qədər Azərbaycan və Səudiyyə Ərəbistanı arasında iqtisadi proqramların əsas xətti neft-qaz və enerji sahələrini əhatə edirdisə, son illərdə iqtisadi coğrafiya xeyli genişlənib və qeyri-neft sektorunun bütün istiqamətlərində əlverişli işgüzar təmaslar qurulub.

Səudiyyə Ərəbistanının 2 şirkəti "Əsrin müqaviləsi"ndə və Bakı-Ceyhan layihəsində iştirakçıdır. Bundan başqa, Səudiyyə Ərəbistanının "Al-Gahtani Pipe Coatinq Terminal", "Middle East Fiber Cables Manufacturing" və "Middle East Sibecializet Cables CO (MESC)" şirkətləri enerji sektorlarında təmsil olunur. SOCAR ilə "Saudi Aramco" arasında əməkdaşlıq son illərdə genişlənərək hər iki şirkətin beynəlxalq bazarlarda mövqelərinin güclənməsinə səbəb olmaqdadır. Bu prosesdə 2022-ci ildə yaradılmış Azərbaycan-Səudiyyə Ərəbistanı Birgə İşgüzar Şurası öncül təşəbbüslərlə çıxış edir. Qurum sahibkarların təşəbbüslərini dəstəkləmək, onlar arasında birbaşa əlaqələrin qurulmasını təşviq etmək, qarşılıqlı səfərlərin, görüşlərin və müxtəlif tədbirlərin təşkilinə kömək etmək, bizneslər arasında mübadiləni həyata keçirmək missiyası daşıyır.





### Azərbaycan Ticarət Evləri açılır

Səudiyyə Ərəbistanının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falih çıxışında Səudiyyə Ərəbistanının Azərbaycanla ticarət əlaqələrinin inkişafında maraqlı olduğunu, ticarət dövriyyəsinin artırılması, energetika, investisiya, turizm, təhsil, səhiyyə, sənaye, kənd təsərrüfatı, alternativ və bərpa olunan enerji sahələrində əməkdaşlığın genişləndirilməsinə önəm verdiklərini, Səudiyyə şirkətlərinin bu sahələrə investisiya yatırmaq niyyətini də ifadə edib. Bu məqsədlə ixrac missiyalarının təşkili, Ər-Riyad və ya Ciddə şəhərində Azərbaycan Ticarət Evlərinin açılması gündəlikdə dayanır.

Səudiyyə iş adamlarının Azərbaycandakı ekoturizmə və digər turizm sənayelərinə böyük marağı xüsusi nəzərə çarpır. Son beş ildə ölkəmizə ən böyük turist axını 2024-cü ildə qeydə alınıb və Səudiyyə Ərəbistanından Azərbaycana gələn turistlərin sayı 98 min nəfəri ötüb. Bu, səyahət edən turistlərin sayında sədiyyəlilərin dinamikasında daha çox artımın olduğunu təsdiqləyir.

### "ACWA Power"in 5 milyard dollarlıq sərmayə planı

Tərəflər arasında "yaşıl enerji" sahəsində əməkdaşlıq da dayanıqlı zəmin üzərində möhkəmlənir. Səudiyyənin "ACWA Power" şirkəti artıq Abşeron və Xızı rayonlarında 240 MVt gücündə külək elektrik stansiyası inşa edir. Həmçinin "ACWA Power", SOCAR və BƏƏ-nin "Masdar" şirkəti Xəzər dənizində 3,5 qiqavat gücündə dəniz külək elektrik stansiyası layihəsi üzərində birgə işləyir. "Acwa Power" şirkətinin regional direktoru Abid Malik bildirib ki, investisiya əsasən Azərbaycanın bərpaolunan enerji sahəsinə 5 milyard dollara yaxın sərmayə yatırılacaq.

Səudiyyəli investorların işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma və bərpa proseslərində təmsil olunması da istisna edilmir. 2022-ci ilin dekabrında Səudiyyə Ərəbistanı Krallığının investisiya naziri Xalid bin Əbdüləziz Əl-Falihin rəhbərlik etdiyi böyük bir nümayəndə heyəti ölkəmizdə səfəri çərçivəsində azad edilmiş ərazilərə baş çəkərək bölgənin resursları və investisiya imkanları ilə yaxından tanış olub. Həmin səfər zamanı Səudiyyə Ərəbistanından olan özəl şirkətlərin Qarabağın bərpa prosesində iştirakının nəzərdən keçirildiyi vurğulanıb, Səudiyyə İnkişaf Fondu və Səudiyyə İnvestisiya Fondu tərəfindən maliyyə vəsaiti ayrılacağı bildirilib.

***ELBRUS CƏFƏRLİ***

# Minimum istehlak səbətinin tərkibinə yenidən baxılacaq

## "Yaşayış minimumu haqqında" qanunun qəbul edilməsi sosial yardımın məbləğinin artmasına səbəb olacaq

Milli Məclis "Yaşayış minimumu haqqında" Qanunu qəbul edib. Yeni dəyişikliklərə əsasən, minimum istehlak səbətinin tərkibinə yenidən baxılmaqla tibb, təhsil və sosial sahəyə aid müəssisələrdə yeni qida normaları müəyyənləşəcək. Qeyd edək ki, əvvəlki qanunvericilikdə sosial sahəyə aid müəssisələr üçün normaların təsdiqi nəzərdə tutulmurdu ki, bu da həmin sahələrdə sosial imkanlardan tam faydalanmağa imkan vermirdi. Yeni dəyişikliklər bu boşluğu aradan tamamilə qaldıracaq.

Qanuna dəyişikliklər, eyni zamanda, sonuncu dəfə 11 il öncə təsdiq edilən minimum istehlak səbətinin yeni tərkibinin də cari ildə yenidən müəyyənləşməsi üçün hüquqi zəmin yaradır. Ötən illərdə ölkədə qida mallarının qiymətinin artması, bəzi malların çeşidlərində əlavələrin olunması isə istehlak səbətinin dəyişməsi zəruriliyini daha da artırıb. Bu baxımdan adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb. Beləliklə, qanuna dəyişikliklərdən sonra qeyd edilən sahələrdə boşluq aradan qaldırılmaqla, həmin sektorlarda qida normativləri ilə bağlı əhatəlilik təmin olunacaq.



### Yaşayış minimumu istehlak səbətinin dəyərini müəyyənləşdirəcək

Minimum istehlak səbətinin yeni tərkibinin müəyyənləşdirilməsi son təsdiqdən ötən dövrdə yaranan xərclərin də nəzərə alınmasına imkan verəcək. Qeyd edək ki, yaşayış minimumu minimum istehlak səbətinin dəyəri və icbari ödənişlərin cəmindən ibarət sosial normadır. Minimum istehlak səbəti isə insan sağlamlığının və həyat fəaliyyətinin minimum səviyyəsi üçün zəruri olan ərzaq, qeyri-ərzaq malları və xidmətlərin elmi normalar əsasında müəyyən edilmiş toplusudur. Buraya ərzaq məhsullarının, fərdi və ailəvi istifadə olunan qeyri-ərzaq mallarının minimum toplusu (geyim, ayaqqabı və dəftərxana ləvazimatları, təsərrüfat, mədəni-məişət, sanitariya əşyaları, dərmanlar və s.) və xidmətlərin minimum toplusu (mənzil-kommunal, nəqliyyat, rabitə, məişət, təhsil, mədəni-maarif, müalicə-istirahət xidmətləri və s.) daxildir. İstehlak səbətinə daxil olan ərzaq məhsulları, qeyri-ərzaq malları və xidmətlər orta bazar qiymətləri (tarifləri) ilə, icbari ödənişlər isə normalaşmış faktiki məsrəflər əsasında hesablanır.

Yaşayış minimumundan aztəminatlı ailələrin rifahının yüksəldilməsi ilə bağlı konsepsiya və Dövlət Proqramlarının hazırlanmasında, əhalinin həyat səviyyəsinin qiymətləndirilməsi və proqnozlaşdırılması ilə əlaqədar hüquqi sənədlərin tərtib olunmasında, eləcə də dövlət və yerli büdcələrin, büdcədənkənar fondların, qanunvericiliklə tənzimlənən qiymət və tariflərin formalaşdırılmasında və normativ sənədlərin hazırlanmasında sosial məqsədlər üçün istifadə olunur. Belə ki, yaşayış minimumu aztəminatlı ailələrə müxtəlif sosial yardımların formalaşdırılması və hesablanmasında, eləcə də onlarla bağlı dövlət proqramlarının işlənib hazırlanmasında, qanunvericilikdə tənzimlənən qiymət və tariflərin formalaşdırılmasında, ölkə üzrə həyat səviyyəsinin müəyyən edilməsində, əhali gəlirlərinin və əmanətlərinin indeksləşdirilməsində də əsas gösətiricidir.

Onu da qeyd edək ki, 2023-cü ildən etibarən ölkəmizdə yaşayış minimumu və ehtiyac meyarının məbləği eyni həcmdə olmaqla bərabərləşdirilib. Bu baxımdan yaşayış minimumunun artırılması ehtiyac meyarının da artmasını təşviq etməklə, ünvanlı sosial yardımların məbləğinin də yüksəlməsinə səbəb olacaq. Belə ki,

"Yaşayış minimumu haqqında" qanunun 1.0.9 maddəsinə əsasən, ehtiyac meyarı əhalinin əsas sosial-demoqrafik qrupları üzrə yaşayış minimumundan asılı olaraq ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə dövlət büdcəsi ilə birgə hər il üçün təsdiq olunan hədddir. , ünvanlı yardım əsas etibarilə aztəminatlı ailələr üçün nəzərdə tutulub. Beləliklə, ehtiyac meyarının artması aztəminatlı ailələr üçün nəzərdə tutulmuş sosial yardımın dəyərinə də müsbət təsir edəcək.





### Aztəminatlı ailələrin sosial müdafiəsi ilə bağlı hədəflər

Hökumət qarşısında duran əsas sosial məqsədlərdən biri növbəti mərhələdə yaşayış minimumumunun mərhələli şəkildə artırılması və Avropa Şurasının tətbiq etdiyi standartlar səviyyəsinə çatdırılmasıdır. "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" sənədində əhalinin həssas sosial qrupları, aztəminatlı ailələrlə bağlı müxtəlif dövlət proqramları çərçivəsində tədbirlərin görülməsi, eləcə də əhalinin gəlir əldətmə imkanlarının artırılması ilə bağlı hədəflər müəyyənləşib.

Hazırda ölkəmizdə yaşayış minimumunun məbləği 285 manat təşkil edir. Minimum istehlak səbətinin yeni tərkibinin müəyyənləşdirilməsi ötən dövrdə yaranan xərclərin də nəzərə alınmasına imkan verəcək. Bu, həm də istehlak səbətinin yeni tərkibinin müəyyənləşməsi fonunda hazırda dəyəri 285 manat olan yaşayış minimumunun da artırılması üçün imkanlar yaradacaq. Nəticədə sosial dəstəyə daha çox ehtiyacı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi də təmin ediləcək.

***E.CƏFƏRLİ***

# İctimai və dövlət maraqlarının vəhdəti

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İctimai və dövlət maraqlarının müdafiəsi” istiqaməti üzrə hazırlanmışdır**

İctimai və dövlət maraqlarının vəhdəti və onların səmərəli qorunması hər bir müasir dövlətin qarşısında duran əsas vəzifələrdən biridir. Azərbaycan Respublikasında bu vəhdətin təmin olunması və hüquqi-institusional mexanizmlərlə qorunması məsələsi dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Həyata keçirilən islahatlar, qəbul edilən qanunvericilik aktları və qurulan yeni idarəetmə modelləri həm cəmiyyətin rifahına, həm də dövlətin təhlükəsizliyinə, suverenliyinə və sabitliyinə xidmət edir.

Ermənistanın işğalçılıq siyasətinə qarşı 44 günlük Vətən müharibəsində qazanılmış Zəfər isə dövlət və xalq birliyinin, ümummilli maraqların necə vəhdət təşkil etdiyinin ən parlaq nümunəsi oldu. Azərbaycanda dövlətin iradəsi ilə ictimai iradənin bir birini tamamlaması milli gücü formalaşdırır ki, bu da qələbəmizin ən mühüm amilləri sırasında yer alır.

**Milli maraqların təmin olunması prioritetdir**

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov “Yeni Azərbaycan”a açıqlamasında bildirib ki, bütün bəşəri və milli dəyərləri qoruyan və təbliğ edən Azərbaycan Respublikasında dövlət maraqlarının, ictimai və milli maraqların təmin olunması prioritetdir. Onun sözlərinə görə, milli maraqlar Azərbaycan xalqının fundamental dəyər və məqsədlərini, həmçinin insan, cəmiyyət və dövlətin tərəqqisini təmin edən siyasi, iqtisadi, sosial və digər tələbatların məcmusudur: “Müasir Azərbaycan sosiumu intellektual əsaslarda formalaşmış modern bir cəmiyyətdir. Əminliklə söyləyə bilərik ki, Azərbaycan cəmiyyəti ictimai maraq və dövlət marağı məfhumlarının mahiyyətini dərk edən, bu mövqeyi ictimai, siyasi münasibətlərdə və dövlətlə əlaqələrində nümayiş etdirməyi bacaran, formalaşmış yetkin bir cəmiyyətdir. Həm dövlətin mənafeyinə zərər gəlmədiyi, həm də ictimai maraqlar



təmin edildiyi, ortaq maraqlar müəyyənləşdirildiyi və üst-üstə düşdüyü halda ideal cəmiyyətin formalaşması mümkün olur. Dövlət nümayəndələri ilə vətəndaş cəmiyyətinin nümayəndələri arasında təmaslar, qarşılıqlı anlaşma nə qədər çox olarsa, o zaman ortaq maraqlar da bir o qədər artar. Prezident İlham Əliyev bildirib ki, “Bizim siyasətimizin təməlində dövlət maraqları, xalqla iqtidar arasında birlik dayanır”.

**Demokratik inkişaf istiqamətində mühüm nailiyyətlər...**

B.Məhərrəmov qeyd edib ki, Azərbaycanda ictimai və dövlət maraqlarının müdafiəsi işinə mühüm töhfələr verən strateji amillərdən biri demokratik inkişaf istiqamətində mühüm nailiyyətlərin əldə edilməsi, o cümlədən bütün azadlıqların təmin olunmasıdır: “Bəllidir ki, ölkəmizdə reallaşdırılan çoxistiqamətli islahatlar siyasi sistemin təkmilləşməsinə mühüm töhfələr verir. Mövcud reallıqlar onu deməyə əsas verir ki, Azərbaycan siyasi, hüquqi, iqtisadi və institusional islahatları davam etdirmək əzmindədir və həyata keçirilən bütün tədbirlər ölkəmizin davamlı inkişafına xidmət edir. Azərbaycanın demokratik inkişafının təqdirəlayiq olduğunu vurğulayan ekspertlər də bildirirlər ki, ölkəmiz dünyaya spesifik xüsusiyyətlərə malik davamlı inkişaf modeli təqdim edib. Əlamətdar haldır ki, Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır və bir-birini tamamlayır. Bu gün əminliklə demək mümkündür ki, müstəqilliyinin ilk illərində bir sıra ciddi çətinliklərlə üzləşən Azərbaycan qısa müddətdə həm iqtisadi, həm də siyasi sahədə qarşıya qoyduğu əsas hədəflərə çatıb. Azad, demokratik cəmiyyət quruculuğuna nail olunması ölkəmizin müstəqillik illərində əldə etdiyi ən böyük uğurlardan biri kimi dəyərləndirilir”.

**Azərbaycanın təkmil siyasi sistemi**

Deputatın sözlərinə görə, demokratik inkişaf yolunda həyata keçirilən sistematik tədbirlərin qanunauyğun nəticəsi kimi, Azərbaycanda təkmil siyasi sistem bərqərar olunub: “Xüsusilə də, hüququn aliliyi, ictimai həyatın bütün sahələrində qanunun hökmranlığı prinsiplərinin mühafizə olunması dövlətin və vətəndaşların qarşılıqlı məsuliyyətinin güclənməsini təmin etməklə yanaşı, hüquqi dövlətin təməllərini də möhkəmləndirib. Hüquqi dövlət quruculuğu kontekstində şəffaflıq və bərabərlik həm də söz, fikir, vicdan azadlığı məsələlərində də təmin olunub. Qonşu ölkələr kontekstində görürük ki, dövlət və ictimaiyyət arasında çox ciddi çatlar meydana gəlir. Bu da dövlətin parçalanması, xaosla nəticələnir. Azərbaycanda tamamilə fərqli situasiya hökm sürür. Burada biz dövlət və xalq birliyini görürük.

Nəticə etibarilə, qeyd etmək lazımdır ki, ictimai və dövlət maraqları hər bir cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır. Ona görə də, bu maraqların qorunması əsas vəzifələrdən biri olmalıdır”.

***Sahib***

# Ərəb ölkələrindən İrana xəbərdarlıq

## Tramp atəşkəs elan etdi

İran Silahlı Qüvvələri ABŞ Hərbi Hava Qüvvələrinin İrandakı nüvə obyektlərinə zərbələrinə cavab olaraq iyunun 23-də gecə saatlarında ABŞ-ın Qətərdəki Əl-Udeyd bazasına raket hücumları həyata keçirib. Rəsmi məlumatlara görə, hücum zamanı Qətər daxil olmaqla regionun digər ərəb ölkələri - Bəhreyn, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, Oman, İraq, İordaniya və Səudiyyə Ərəbistanınında yerləşən bütün ABŞ hərbi bazalarında hava sirenləri səsləndirilmişdi. “New York Times” qəzeti öz mənbələrinə istinadən qeyd edib ki, İran böyük itkilərə yol verməmək üçün Qətər hakimiyyətinə ABŞ-ın Əl-Udeyd aviabazasına planlaşdırılan hücumla bağlı əvvəlcədən xəbərdarlıq edib. “Əl-Cəzirə” isə Əl-Udeyd bazasında heç bir itkinin olmadığını bildirib. İranın bu addımına qarşı qonşu ərəb ölkələri tərəfindən ciddi reaksiya verilib. Eyni zamanda, qeyd etmək lazımdır ki, ABŞ Prezidenti Donald Tramp öz “Truth Social” sosial şəbəkə hesabında İsrail ilə İran arasında 12 günlük atəşkəsin elan olunduğunu qeyd edib.

### Ərəb dövlətləri İrana xəbərdarlıq edib

Qətər Dövləti İran İslam İnqilabı Keşikçiləri tərəfindən əl-Udeyd hava bazasına edilən hücumu şiddətlə pisləyib və bunu Qətərin suverenliyinin və hava hüdudlarının, eləcə də beynəlxalq hüququn və BMT nizamnaməsinin kobudcasına pozulması hesab edib. Qətər Xarici İşlər Nazirliyinin mətbuat katibi, Baş nazirin müşaviri Macid bin Məhəmməd əl-Ənsari jurnalistlərə açıqlamasında bildirib ki, Qətər Dövləti bu açıq təcavüzə beynəlxalq hüquqa uyğun şəkildə birbaşa cavab vermək haqqını özündə saxlayır. Nazir əlavə edib ki, ABŞ, İsrail və İran arasında qarşılıqlı hücumların şiddətlənməsi regional təhlükəsizlik və sabitliyi təhdid altına qoyur. Qətər Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi, həmçinin qeyd edib ki, bölgədəki gərgin vəziyyət fonunda təhlükəsizlik və qabaqlayıcı tədbirlər çərçivəsində hava bazası öncədən təxliyə edilmişdi. Səudiyyə Ərəbistanı, o cümlədən Ərəb Dövlətləri Liqası da İranın son hərbi əməliyyatını qəbuledilməz hesab edib. Səudiyyə Ərəbistanının Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, rəsmi Ər-Riyad İranın Qətərdə son əməliyyatını sərt şəkildə pisləyir və bunu beynəlxalq hüququn və qonşuluq prinsiplərinin kobul şəkildə pozulması hesab edir. Eyni zamanda, bəyanatda Səudiyyə Ərəbistanının Qətər Dövləti ilə həmrəy və Qətərə bütün addımlarında dəstək olmaq üçün bütün imkanlarını səfərbər etməyə hazır olduğu da vurğulanır. Ərəb Dövlətləri Liqası İranın Qətərdə əl-Udeyd hərbi bazasına hücumunu pisləyib və bunu ölkənin suverenliyinə qarşı tamamilə qəbuledilməz bir təcavüz kimi qiymətləndirib. Təşkilatın Baş katibi Əhməd Əbul-Ğeyt bəyan edib ki, təşkilat bu məsələdə Qətərlə həmrəydir. Əbul-Ğeyt, həmçinin nəzarətsiz şəkildə genişlənə biləcək münaqişənin ağır nəticələr doğura biləcəyini bildirib və gərginliyin azaldılması üçün təcili addımlar atmağa çağırıb.




### ABŞ hər iki tərəflə danışıb

İsrail isə İrana qarşı əməliyyatı tezliklə yekunlaşdırmaq niyyətindədir. “Reuters” agentliyi məlumat verir ki, İsrail hakimiyyəti İranın cavab zərbələrini qabaqlamaq və müharibəni bitirmək üçün mükəmməl strategiya axtarışındadır. Agentliyin məlumatına görə, İsrail İrana qəfil zərbə endirmək anını təxmin edib, lakin döyüşlərin sonunu nəzarətdə saxlaya bilmir. İsrailli rəsmilər “Reuters”ə şərhində bildiriblər ki, Tehran İsraili onu tükəndirmə müharibəsinə cəlb edə bilər. Bu arada Ağ Evdən CNN-ə verilən məlumata görə, Tehran cavab zərbələrindən əl çəkəcəyi təqdirdə İsrail İranla atəşkəsə razı olacaq. Telekanal Ağ Evin məlumatına əsasən qeyd edir ki, dünən gecə Tramp İsrailin Baş naziri Benyamin Netanyahu ilə telefon söhbəti aparıb. Söhbət zamanı Tramp Netanyahudan İrana qarşı bütün hərbi əməliyyatları dayandırmağı tələb edib. Netanyahu da Trampın təklifini qəbul edib. Bununla paralel olaraq, ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens, Dövlət katibi Marko Rubio və administrasiyanın Yaxın Şərq üzrə xüsusi elçisi Stiv Vitkoff İran rəsmiləri ilə birbaşa və dolayı kanallar vasitəsilə atəşkəsin şərtlərini müzakirə ediblər. Ağ Ev bildirib ki, razılaşma yalnız ABŞ-ın İranın Natanz, Fordo və İsfahana zərbələri nəticəsində mümkün olub.

### Hücumlar davam edir

İsrail Müdafiə Nazirliyinin məlumatına görə, dünən səhər İran İsrailin müxtəlif bölgələrinə raket zərbələri endirib. Qeyd edilib ki, İsrail Hərbi Hava Qüvvələri təhlükəni aradan qaldırmaq üçün lazım olan yerlərə zərbələr endirmək niyyətindədir. İsrail KİV-ləri öz növbəsində qeyd edib ki, Hayfa bölgəsində, Yuxarı Qalileydə, Qərbi Qalileydə və Qolan təpələrində həyəcan siqnalları səslənib. İsrailin müdafiə naziri İsrael Katz İsrail Hərbi Hava Qüvvələrinə İrana intensiv hücum əməliyyatlarını davam etdirməyi əmr edib.



### ABŞ öz məqsədinə çatıb?

Vitse-prezident Ceyms Devid Vens “Fox News” telekanalına müsahibəsində bildirib ki, ABŞ-ın İrana zərbələri nüvə silahı hazırlamaq üçün lazım olan infrastrukturu məhv edib. “İran indi malik olduğu avadanlıqla nüvə silahı istehsal etmək iqtidarında deyil, çünki biz onu məhv etmişik,” - deyə Vens vurğulayıb. Lakin bəzi mənbələrin məlumatlarına görə, İranın İsfahan şəhərində və bəzi bölgələrində uran ehtiyatlarını gizli şəkildə saxlayan mərkəzlər fəaliyyət göstərməkdədir.

***Yunis ABDULLAYEV***

# Oxunduqca yazılan roman

## Andre Jidin “Saxta pul kəsənlər” romanı haqqında

**əvvəli ötən sayımızda**

Eduar həkimin müşahidəsini gündəliyinə qeyd eləyir: polyak həkim Sofronitskaya əmindir ki, Boris nəsə utanc verən bir sirri qəlbinin dərinliyində gizləyir. Eduar özü də gözləmədən “Saxta pul kəsənlər” romanının məğzini açıb dostlarına danışır. Bernar kitabı dükanda ona soxuşdurulmuş saxta puldan başlamağı məsləhət görür.

Xanım Sofronitskaya Borisin “tilsimini” göstərir - bu, üstünə “Qaz. Telefon. Yüz min frank” yazılmış bir kağız parçasıdır. Məlum olur ki, doqquz yaşında sinif yoldaşı onu sadəlövh uşaqların “sehr” adlandırdığı axmaq bir vərdişə yoluxdurub. Eduara elə gəlir həkim qadın uşağın qəlbinin bütün kilidlərini açıb töküb. Boris arzu-xəyalsız yaşaya bilmir, ola bilsin, Azaisin pansionunda qalmaq ona fayda gətirər.

Olivyedən cavab məktubu gəlir, məktubda o, Roberin dəstəsində İtaliya səfərinə çıxdığından heyranlıqla söz açır. Taleyin oyunu nəticəsində Olivyenin olası yeri Bernar tutub. Dayısı Eduar Olivyeni çox istəyir, Passavanın bu kövrək varlığı, saf yeniyetməni korlayacağından qorxur. Əvəzində Bernar Lauraya sevgisinin sayəsində aşkar surətdə yaxşılığa doğru dəyişir.

Parisə qayıdanda Eduar Borisi babasıyla tanış eləyir. Ata Molinye Eduara başına gəlmiş xoşagəlməz işlərdən danışır: sən demə, kişinin qıraqda məşuqəsi varmış, sevgilisinin yazdığı məktubu ələ keçirən arvadı isə bundan xəbər tutub. Oğlu Olivyenin Bernarla dostluğu da onu narahat eləyir. Məhkəmə müstəntiqi Profitandye məktəblilərin əxlaqsızlığa cəlb olunmasıyla bağlı araşdırma aparır, dünyaya qanunsuz gəlmiş bic Bernardan isə nə desən gözləmək olar.

Eduar Bernarı Azaisin pansionuna tərbiyəçi işinə düzəldir. Nəvəsi Borisə yaxın olmaq üçün qoca Laperuz da oraya köçür. Şagirdlərin ən diribaşı, bir zaman pansiondan qovulmuş, indisə saxta pul alverinə girişmiş Viktor Struvilunun bacısı oğlu Leon uşağı elə başdan gözümçıxdıya salır. Jorj Molinye qarışıq bir neçə məktəbli Leonun komandasının üzvüdür, müstəntiqin Eduara dediyi əxlaqsızlıq oyunlarında onların hamısının adı keçir. Polis basqınından sonra onlar öz emblemlərini, sarı lentlərini gizləməyə məcbur qalıblar, ancaq Leon onlara daha maraqlı əyləncə təklifində bulunmağa hazırdır.

***

Polina Molinye qardaşıyla şübhələrini bölüşür: son vaxtlar tez-tez evdən pul yoxa çıxır, bu yaxınlarda isə məşuqəsinin ərinə yazdığı məktublar da itib. O məktubları Polina çoxdan tapıbmış, qısqanmaq, dava salmaq ağlına da gəlməyib, ancaq Jorj onlardan xəbər tutsa, heç yaxşı olmayacaq. Kiçik oğlunun taleyi sarıdan ana çox narahatdır, Vinsent artıq yekə kişidir, ortancıl Olivye də sevimli dayısına güvənə bilər. Hərçənd Olivye özü də əzab çəkir, ona Bernarla, Eduar dayısıyla ünsiyyət gərəkdir, o isə Passavana qoşulub.

“Arqonavt” jurnalının çıxması münasibətiylə verilən banketdə Olivye möhkəm keflənib şuluq salır, səhəri gün ayılanda isə intihara cəhd göstərir. Eduar bacısı oğlunu xilas eləyir, bundan sonra dayı-bala arasında mehribanlıq, səmimiyyət yaranır. Passavan özünü inandırır ki, Olivyenin yaraşığını da, qabiliyyətini də çox şişirdib, ütük, yaramaz Struvilu jurnal redaktorluğunu daha yaxşı yarıdardı.

Məhkəmə müstəntiqi Profitandye Eduarla görüşüb ondan yeznəsi prokuror Molinyeyə bunları çatdırmağı xahiş eləyir: əxlaqsızlıqla bağlı qalmaqallı məsələdə onun oğlu Jorjun da adı hallanır, indisə uşağı saxta pulla bağlı fırıldaq mexanizminə qoşublar. Xeyli tərəddüddən sonra Profitandye oğulluğu Bernardan da söz salır, Eduar görür ki, möhkəm xarakterli bu kişinin indi ən böyük qayğısı Bernarın atalığına əvvəlki sevgisini geri qaytarmaqdır.

***

Bu aralar Bernar bakalavr imtahanlarını parlaq nəticəylə başa vurur. Oğlan öz uğurunu, sevincini bölüşmək üçün alışıb yanır, atasının yanına qaçıb onun boynuna sarılmaqdan özünü güclə saxlayır. Lüksemburq bağında onun gözünə mələk görünür. Bernar mələyin ardınca əvvəl kilsəyə, sonra cürbəcür partiya yığıncaqlarına, sonra biganə, laqeyd, mənasız insanlarla dolu bulvara, sonra da yoxsullar yaşayan məhəllələrə, aclıq, xəstəlik, cinayət, pozğunluq kimi bəlaların at oynatdığı yerlərə baş vurur. Bernarın mələklə macəralarını dinləyən Eduar onu Profitandye atayla görüşüb söhbətləşdiyi barədə məlumatlandırır.

Pansionda isə bu vaxt fəlakət yetişməkdədir. Uşaqlar qoca Laperuzu gözümçıxdıya salırlar, Leonun dəstəsi onun tapançasını oğurlayır. Struvilu bacısı oğlu vasitəsiylə məktəbliləri uzaqdan-uzağa nəzarətdə saxlayır, onun dövriyyəyə buraxdığı saxta pullar əl-əl gəzir, göydə qapılır. Jorj Molinye atasının sevgi məktublarını ələ keçirir. Sofronitskaya Borisə qızı Bronyanın - oğlanın ən əziz dostunun öldüyünü xəbər verir. Bundan sonra dünya uşağın gözündə səhraya dönür. Struvilunun təhrikiylə Leon “Qaz. Telefon. Yüz min frank” yazılı kağızı onun oturduğu partanın üstünə atır. Artıq “sehrli” kəlmələri unutmuş Boris şeytanın feli qarşısında duruş gətirə bilmir, özünə nifrəti uşağı “güclü adam” fənnindən imtahan verməyə sövq eləyir. Boris dərsin gedişində qocanın tapançasından özünü atır - tapançanın dolu olduğunu isə yalnız Leon bilirdi.

Gündəliyinin son sətirlərində Eduar bu intiharın nəticələri barədə yazır: Azaisin pansionu buraxılır, dərindən sarsılan Jorj Leona pərəstişdən biryolluq sağalır. Olivye dayısına xəbər verir ki, Bernar atasının yanına qayıdıb. Müstəntiq Profitandye Molinye ailəsini evinə qonaq çağırır. Eduar Bernarın balaca qardaşı Kalunu yaxından tanımaq istəyir...

***

Göründüyü kimi, çoxplanlı, çoxmərkəzli, çoxlaylı “Saxta pul kəsənlər” romanı eynən həyatın özütək şəbəkə üsuluyla hörülüb, ədəbiyyatşünasların kaleydoskopa bənzətdiyi bədii metod əsasında qələmə alınıb. Burada hamı bir yerdədir, hamı iç-içədir, amma hər kəs də yalqızdır, təkdir, təkrarsızdır. Müəllifin həyatla bağlı anarxistik dünyagörüşü əsərin formasında da əksini tapıb, bu baxımdan bu romanı modernist ədəbiyyatda məzmunla formanın vəhdətinə ən yaxşı nümunələrdən biri saymaq olar.

Əsərdəki personajlar özlərindən xəbərsiz adlarına yazılmış taleyin yükü altında əzilirlər, hər kəs bu yükün altından çiynini qaçırmaq istəyir. Hamının yeri dəyişik düşüb, hamı özünü itirib, hamı saxta pul kimi gerçək dəyərindən məhrum olunub, fəqət hər kəs həqiqi varlığına qovuşub əsl mənini tapmaq istəyir, hər kəs dünya bazarına real dəyəriylə çıxmaq istəyir, özü olmaq istəyir. Başqalarının məhsulu olmaq həyatı cəhənnəmə çevirir, insan orijinal görünmək istəyəndə yox, başqasını yamsılayanda, özgəsinin xəttinə girəndə yox, yalnız doğrudan özü olanda, içini qazıb mahiyyətinə yetəndə, qəlbini saflaşdırıb həqiqi mənini ortaya qoyanda sözün əsl mənasında orijinal olur. Romandakı Eduar da, Bernar da belə bir orijinallığa yaxın tiplərdir. Bunu bacarmayan adam ömrü boyu özgələrin yedəyində dolanmağa məhkumdur. Deyilən cəhətlərinə görə Andre Jidin romanını ekzistensializm fəlsəfəsinə illüstrasiya da saya bilərik.

Yalnız özünü tapanda taleyi insana boyun əyir, yalnız onda insan özünü kainatın mərkəzinə çəkə bilir. Ola bilsin, Andre Jid tipli fikir adamlarından ötrü belə bir mərkəz yoxdur, ancaq ayrıca götürülmüş insanın fövqünə qaldırılan bütün mərkəzləri, bütün institutları, bütün təsisatları inkara qalxan anarxizmin özü də belə bir mərkəz tanıyır - bu mərkəz ayrıca götürülmüş hər bir fərdin özüdür. Yer üzündə nə qədər insan varsa, o qədər də baxış bucağı, ilahi kamera var. “Saxta pul kəsənlər” romanının məzmunu da, forması da həyatı bu sayaq qavrayan plüralistik, bundan da artıq anarxistik düşüncənin məhsuludur.

Burada hökm sahibi müəllif, söz yiyəsi baş qəhrəman yoxdur, burada sözün məcazi mənasında hamı qəhrəmandır. Hamının başına uçurulmuş taleyinin xarabalığından sıyrılıb aydın yola çıxmaq haqqı, özünə qayıtmaq, özünə çatmaq ixtiyarı var. Bu haqqı, ixtiyarı nə bizim əlimizdən alan, nə də onu bizə verən olacaq. Haqqımızı, ixtiyarımızı dərk elədiyimiz andan haq da, ixtiyar da özümüzdədir - heç vaxt dəyərdən düşməyən, qiymətini itirməyən qızıl pul kimi.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






## Yazdıqlarını ekranlaşdıran sənətkar...

### Həsən Seyidbəylinin anım günüdür

Bu gün Xalq artisti, rejissor Həsən Seyidbəylinin vəfatından 45 il ötür. Həsən Seyidbəyli milli Azərbaycan kinosunun inkişafında xüsusi yeri olan, öz adını uğurlu filmləri ilə kino salnaməsinə qızıl hərflərlə yazdıran sənətkarlardandır. O, Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin I katibi, sədri vəzifəsində çalışıb. Filmləri Ümumittifaq Kino festivallarında mükafat və diplomlara layiq görülüb.

"İmtahan", "Qızıl axtaranlar", "Bağlı qapılar" adlı dram əsərləri Azərbaycanda və xaricdə səhnəyə qoyulub. "Telefonçu qız" povesti, "Cəbhədən-cəbhəyə", "Tərsanə", "Çiçək", romanları, "Dəniz cəsurları sevir", "Sən nə üçün susursan" (Hər ikisi İ.Qasımovla birgə) pyeslərinin, "Uzaq sahillərdə" (İ.Qasımovla birgə) əsərinin müəllifidir. "Bizim Cəbiş müəllim", "Nəsimi", "Qızmar Günəş altında", " O, qızı tapın", "Yolda əhvalat", "Uzaq sahillərdə" (İ.Qasımovla birlikdə) və neçə-neçə gözəl filmlərin rejissoru və ssenari müəllifidir..

## Onun üçün əsas meyar istedad idi...

Həsən Seyidbəyli öz filmlərində tanınmayan, amma istedadlı insanları çəkməyə üstünlük verirdi. "Nəsimi" filmi buna sübutdur. Həmin filmdə baş rol üçün namizədlərin sayı çox olub. Lakin Həsən Seyidbəylinin inadı və həssas duyumu yalnız Rasim Balayevə yönəlib.



Gənc bir tələbənin belə bir tarixi şəxsiyyətin, böyük şairin obrazını məharətlə yaradacağına inanan Həsən Seyidbəyli həqiqətən də yanılmayıb. Uzaqgörən insan olan sənətkar işinə də, sənətinə də məsuliyyətlə yanaşıb. Onun üçün əsas meyar istedad istedad olub.

Həsən Seyidbəyli həm də peşəkar publisist idi. İctimai-siyasi xadim kimi diqqət mərkəzində olan bu şəxsiyyət tez-tez xarici ölkələrdə müxtəlif səfərlərdə olub. Hər səfərdən qayıdışı isə mətbuat səhifələrində oçerk, təəssürat, yol qeydləri kimi öz əksini tapıb. Müəllifin bu sahədəki xidmətləri təqdirəlayiqdir. "İlk tanışlıq", "On beş gün Yaponiyada", "Yuqoslaviya xatirələri", "İyirmi gün Amerikada", "Gördüyüm yerlər" adlı publisistik kitablarda məhz səfər təəssüratlarından bəhs edilib.

## Həsən Seyidbəyli yazıçı və publisist kimi...

Həm kinorejissor, həm də yazıçı kimi mükəmməl yaradıcılığa malik olan Həsən Seyidbəyli bir neçə çağırış Azərbaycan Ali Sovetinin və Bakı Sovetinin deputatı kimi də fəaliyyət göstərib. Filmləri Ümumittifaq Kino festivallarında priz və diplomlara layiq görülüb. Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi və sədri vəzifəsində işləmiş Həsən Seyidbəylinin yaradıcı əməyi həmişə qiymətləndirilib. O, "Şərəf nişanı", "Qırmızı əmək bayrağı" orden və medalları ilə təltif edilib.

Rejissorun ölümü çox ani baş verib. Otuz saniyənin içində dünyasını dəyişib. Naharını edəndən sonra qəfildən halı pisləşib. Həyat yoldaşı ona iynə vursa da vəziyyəti düzəlməyib. 1980-ci il iyunun 25-də vəfat edən Həsən Seyidbəylinin 59 yaşı vardı.

*Yeganə BAYRAMOVA*

# Vacib missiyanı yerinə yetirənlər...

## Dənizçilərin peşə bayramıdır

"Dənizçi dənizin dilini anlayar, dəniz isə dənizçinin kədərini, təkliyini alar"- deyiblər. Adətən dənizçi olmağı darıxmaq sözünə sinonim sayırlar. Belə ki, günlərlə, həftələrlə, bəlkə də aylarla su yolçuluğu edən dənizçilər bəzən su kimi sakit, bəzən dəniz kimi coşqunluqları ilə də seçilirlər. Ona görə də çətin və şərəfli peşə sahibləri sırasında dənizçilərin adı xüsusilə vurğulanmalıdır. Məhz bu sahənin vacibliyini nəzərə alan İMO (Beynəlxalq Dəniz Təşkilatı) 2011-ci ildən başlayaraq hər il 25 iyun tarixinin Dünya Dənizçilər Günü kimi qeyd olunması təklifini irəli sürüb.

Günlərlə ailə üzvlərindən, sevdiklərindən uzaq olan mavi suların yolçuları dünya iqtisadiyyatının inkişafında da böyük rol oynayırlar. Belə ki, dünya ticarətinin təxminən 90 faizi dəniz vasitəsilə həyata keçirilir. Yəni geyimimizdən tutmuş, məişətdə istifadə etdiyimiz elektron əşyalara, hətta çörəyin hazırlanması üçün lazım olan taxıla qədər demək olar ki, əksər zəruri tələbat malları ünvanlarına gəmilərlə daşınır. Təbii ki, təlatümlü dənizləri, okeanları aşan gəmiləri idarə edən dənizçilər bu mənada böyük zəhmət çəkirlər - vacib bir missiyanı yerinə yetirirlər.




## Amerikanı kəşf edən...

Dünya Dənizçilər Günündən danışarkən həyat hekayələri uzun əfsanə və nağıllar subyekti olan dənizçilərdən də söhbət açmaq yerinə düşərdi. Bu zaman sual yaranır: Dünyanın ən məşhur dənizçisi kimdir? Yəqin ki, ən məşhur dənizçilər sırasında Xristofor Kolumbun adını çəksək, yanılmarıq. Bu dünyaşöhrətli səyyah və dənizçi geniş coğrafi biliklərə sahib idi. O, dənizçilik işində böyük təcrübə toplayaraq, Yerin kürə formasında olduğu fikrini dəstəkləyib. Həmin dövrlərdə dənizçilər İspaniya və Portuqaliya, Hindistana və Çinə yeni dəniz yolu tapmaq uğrunda rəqabət aparırdılar. Kolumb bununla bağlı layihəsini Portuqaliya Kralı II Juana təqdim edir. Kral bu layihəni qəbul etmədiyindən Kolumb 1484-cü ildə Portuqaliyanın rəqibi olan İspaniyaya köçür. İspaniya kraliçası İzabella isə bu layihəni bəyənir. 1492-ci il oktyabrın 12-də Baham adalarından biri olan San-Salvador, oktyabrın 29-da Kuba, dekabrın 6-da Haiti adaları kəşf edilir. "Santa Mariya" gəmisinin qəzaya uğraması səbəbindən 1493-cü ildə geri qayıdan Kolumba kraliça tərəfindən "Baş okean admiral"ı rütbəsi verilir.

Ceyms Kuk da məşhur dənizçi - səyyahlardandır. Nökər ailəsində dünyaya göz açan Kuk 18 yaşında ikən yaxın məsafələrə üzən gəmiyə işə düzəlməklə həyatını dənizə bağlayır. Fransa ilə İngiltərə arasında yeddiillik müharibədə bacarığı ilə seçilən ingilis səyyah 1759-cu ildə zabit rütbəsi alır, gəmi ilə Hollandiya, Norveç və digər ölkələrə səfər edir. Böyük elmi nəticələr verən üç dünya səyahəti edən Kukun ən uğurlu səyahəti ilk ekspedisiyası olur. Sözügedən ekspedisiyada səyyahın qarşısına qoyulan əsas məqsəd "Naməlum Cənub" torpağını tapmaq olur. Beləliklə, ilk dəfə sübut edilir ki, Yeni Zellandiya cənub materikinin bir hissəsi olmayan və boğazla iki yerə ayrılan adalardan ibarətdir. Daha sonra Avstraliyanın şərq sahillərini mənimsəyib xəritəyə köçürən Ceyms Kuk ilk dəfə onun ayrıca bir materik olduğu fikrini irəli sürür və onu sübut edir.

Ferdinand Magellan isə Yer kürəsinin ətrafına ilk dövrə vuran dənizçi hesab olunur. Lakin Magellan dünya ətrafına ilk səyahətini başa çatdırmamış dünyadan köçür. Səfər bask dənizçisi Xuan Sebastyan de Elkano tərəfindən uğurla başa çatdırılır. 15-16-cı əsrlərdə İspaniya və Portuqaliya arasında torpaqların ələ keçirilməsi və yeni dəniz yollarının inkişafı uğrunda fəal rəqabət mübarizəsi gedirdi. 1505-1513-cü illərdə Magellan dəniz döyüşlərində iştirak edərək cəsur döyüşçü olduğunu da sübut edir. Bu keyfiyyətlərinə görə o, dəniz kapitanı rütbəsinə layiq görülüb.



## Azərbaycanda dənizçilik inkişaf edir...

Mavi Xəzərin qoynunda yerləşən Azərbaycanda da dəniz nəqliyyatı bütün zamanlarda öz əhəmiyyəti ilə seçilib. Müstəqillik qazandıqdan sonra, xüsusən son illərdə respublikamızda dəniz nəqliyyatının inkişafına daha böyük dəstək və qayğı göstərilir. Dənizin həm strateji, həm siyasi, həm də iqtisadi cəhətdən həyatımızdakı rolu çox böyükdür. "Dənizçi Günü" ölkəmizdə də qeyd olunur - 2014-cü il iyunun 19-da Prezident İlham Əliyevin Sərəncamı ilə ölkədə - "Dənizçi günü" peşə bayramı təsis olunub.

*Yeganə BAYRAMOVA*

*İdman*

## Azərbaycan Avropa çempionatında 19 cüdoçu ilə təmsil olunacaq




İyunun 26-29-da Şimali Makedoniyanın paytaxtı Skopyedə cüdo üzrə yeniyetmələr arasında Avropa çempionatı keçiriləcək. Cüdo Federasiyasından AZƏRTAC-a bildirilib ki, Azərbaycan turnirdə ümumilikdə 14 çəki dərəcəsində 19 idmançı (10 oğlan, 9 qız) ilə fərdi yarışlarda təmsil olunacaq. Yığma turnirin son günündə qarışıq komanda yarışında da mübarizə aparacaq. Cüdoçulara yeniyetmə oğlanlardan ibarət yığmanın baş məşqçisi Emin İskəndərov, məşqçilər Nicat Şıxəlizadə ilə Kotaro Sasaki, yeniyetmə qızlardan ibarət millinin baş məşqçisi Elnur İsmayılov, məşqçi Əmrah Əhmədov rəhbərlik edəcək. Qitə birinciliyində Azərbaycan Cüdo Federasiyasının hakimlər heyətinin üzvü, "A" kateqoriyalı beynəlxalq dərəcəli hakim Akif Tahirov ədalət təmsilçiləri arasında yer alacaq.

## Çempionlar Liqası: "Neftçi"nin rəqibi bəlli olub



Növbəti mövsüm Azərbaycanı UEFA Çempionlar Liqasında təmsil edəcək "Neftçi"nin qadın futbolçulardan ibarət komandasının turnirdəki rəqibi müəyyənləşib. AZƏRTAC xəbər verir ki, "ağ-qaralar" dördüncü qrupda Türkiyənin "Fomget" kollektivi ilə qarşılaşacaq.

Siyasət Əsgərovun komandası yarımfinalda türkləri məğlub edəcəyi halda finalda İsrail təmsilçisi "Kiryat"la münasibətlərini aydınlaşdıracaq.

Qeyd edək ki, "Neftçi" yarımfinal mərhələsindəki matçını iyulun 30-da keçirəcək.

## "Azərreyl" kubalı voleybolçu ilə heyətini gücləndirib



Qadın voleybolçulardan ibarət "Azərreyl" komandası heyətini yeni oyunçu ilə gücləndirib. AZƏRTAC klubun rəsmi saytına istinadən xəbər verir ki, "dəmiryolçular" kubalı Daima Del Rio Prevalı transfer edib. 25 yaşlı voleybolçu ilə 1 illik müqavilə imzalanıb.

## PSJ futbolçusunu Danimarka klubuna icarəyə verib




Fransanın PSJ komandası futbolçusu Yoram Zaqı icarəyə verib. AZƏRTAC xəbər verir ki, 19 yaşlı müdafiəçi Danimarkanın "Kopenhagen" klubuna keçib. O, növbəti ilin yayınadək paytaxt təmsilçisinin şərəfini qoruyacaq.

Fransanın U-19 komandasında da çıxış edən gənc oyunçu ötən mövsüm PSJ-nin heyətində 9 matçda iştirak edib.

## "Barselona" "Kamp Nou" stadionuna vaxtından əvvəl qayıda bilər



İspaniyanın "Barselona" klubu yenidən qurulan "Kamp Nou" stadionunda ilk oyununu bu ilin avqust ayında keçirə bilər. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, Kataloniya təmsilçisinin avqustun 10-da həmin arenada "Joan Gamper Kuboku" çərçivəsində İtaliya təmsilçisi "Komo" ilə görüşü nəzərdə tutulub.

Lakin həmin tarixdə stadiona qayıtmaq üçün klub rəhbərliyi qısa müddətdə müvafiq sənədləri hazırlamalıdır. Daha əvvəl "Kamp Nou"nun təmirdən sonra yenilənmiş versiyasında ilk ev oyunlarının sentyabr ayında baş tutacağı planlaşdırılırdı. Stadionda yenidənqurma işlərinə 2022-ci ilin iyununda başlanılıb. Layihəyə arenanın azarkeş tutumunun 105 min nəfərə qədər artırılması da daxildir.

Bu müddət ərzində kataloniyalılar ev matçlarını Lui Kompanis adına Olimpiya stadionunda keçiriblər.

## "İmişli" klubu portuqaliyalı baş məşqçi ilə müqavilə imzalayıb




Yeni mövsümdən Misli Premyer Liqasında çıxış edəcək "İmişli" komandası yeni baş məşqçisini açıqlayıb. Klubdan AZƏRTAC-a bildirilib ki, bu vəzifəyə Xorxe Kaskilya gətirilib. Portuqaliyalı mütəxəssislə 1 illik müqavilə imzalanıb.

Onunla birgə çalışacaq məşqçi heyəti də müəyyənləşib. Kriştianu Duraeş və Qilyerme Kadete köməkçi məşqçi, Elşad Tahirov qapıçılar, Ulian Qoqa isə fiziki hazırlıq üzrə məşqçi olacaq.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 5001
Sifariş: 1332
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova